# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Ulu Öndər Heydər Əliyev dühası və qüdrətli Azərbaycan!**



3

SƏS

№ 074 (7242)

2 may 2025-ci il.
Qiyməti 60 qəpik

# Azərbaycan-İsrail:

## möhkəm təməllər üzərində qurulan münasibət



2

**Prezident İlham Əliyev: "Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur"**

# Ermənistan bataqlığa çəkilir

## Qərb və Rusiya İrəvanı Ukrayna yolu ilə aparır




4

**Axı biz uzunömürlü idik...**



11

**27 mindən çox şagird imtahan verəcək**



16

**Kim saç əkilməsi əməliyyatı etdirə bilməz?**



13

**17 yaşı var, "Barselona"da rekord qırır...**



16

**Ərdoğan və Netanyahu Azərbaycana gəlirlər - saatlar Bakı vaxtı ilə qurulur...**



4

# Azərbaycan-İsrail:

## möhkəm təməllər üzərində qurulan münasibət

**Prezident İlham Əliyev: "Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur"**



**“Azərbaycan yaxın dostu və etibarlı tərəfdaşı olan İsrail ilə münasibətlərin genişlənməsinə xüsusi əhəmiyyət verir”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa bu ölkənin milli bayramı - Müstəqillik Günü münasibətilə ünvanlandığı təbrik məktubunda bildirib.**

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan ilə İsrail arasında mövcud olan dostluq əlaqələrinin və əməkdaşlığın yüksək səviyyəsi xalqlarımızın tarixi bağlılığının, bir-birinə bəslədiyi hörmətin və rəğbətin bariz ifadəsidir. Qarşılıqlı etimad və dəstək kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-İsrail dövlətlərarası münasibətlərinin dinamik və hərtərəfli inkişaf etməsi məmnunluq doğurur.

Bu gün ölkələrimizin iqtisadiyyat, ticarət, müdafiə, humanitar və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini vurğulayan Azərbaycan Prezidenti cari ilin yanvarında Davosda israilli həmkarı ilə görüşünü, apardığı fikir mübadiləsini və müzakirələri ən xoş təəssüratlarla xatırladığını diqqətə çatdırıb. ”İnanıram ki, Azərbaycan ilə İsrail arasındakı ənənəvi dostluq münasibətləri, bir sıra mühüm sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə qarşıdakı dövrdə də yüksələn xətt üzrə inkişaf edəcək və daha da möhkəmlənəcəkdir”, - deyə Prezident İlham Əliyev əlavə edib.

### YENİ STRATEJİ HƏDƏFLƏR

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla İsrail arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Azərbaycan Cənubi Qafqazda İsrailin strateji tərəfdaşıdır və Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Ölkələrimiz arasında sıx, etibarlı və hər iki tərəf üçün faydalı əməkdaşlıq mövcuddur. İsrail-Azərbaycan münasibətləri strateji xarakter daşıyır, dövlətlərarası, siyasi və hərbi-texniki tərəfdaşlıq isə ən yüksək səviyyədədir. Xalqlarımız ümumi tarixlə, dini əlaqələrlə, mədəniyyət və musiqi ilə, tolerantlıqla və qonaqpərvərliyə sevgi ilə bir-birinə bağlıdırlar.

Ölkələrimiz arasında əlaqələrin inkişafında və möhkəmlənməsində siyasi və iqtisadi maraqlar mühüm rol oynayır. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində Azərbaycan ilə İsrail arasında enerji, müdafiə, milli təhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm və s. sahədə sıx əməkdaşlıq var. Azərbaycanda çoxsayda İsrail şirkətləri fəaliyyət göstərir. Təbii ki, bu əlaqələr - iki ölkə arasındakı münasibətlər qarşılıqlı hörmətə və razılığa əsaslanır.

Bildiyimiz kimi, İsrail və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq daim inkişaf edir və möhkəmlənir. ”Biz ayrı-ayrı istiqamətlər - ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük, mən tamamilə əminəm ki, böyük potensial mövcuddur”, - deyən Prezident çıxışlarının birində bildirmişdir.

İsrail ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq xeyli artmaqdadır. Müstəqilliyimzin ilk illərində Azərbaycan sənaye sahələrini tənzimlədikdən və iqtisadiyyatını sərbəstləşdirdikdən sonra İsrail şirkətləri Azərbaycan bazarlarına nüfuz etdilər. Bir çox şirkət xidmət sənayesinə investisiya yatırdı. Məlumdur ki, İsrail Azərbaycan neftinin ən iri alıcılarından biridir. O, neftə olan tələbatının mühüm hissəsini Azərbaycan nefti hesabına ödəyir. İsrail həmçinin Azərbaycandan böyük həcmdə neft məhsulları idxal edir.

### ”YƏHUDİLƏR AZƏRBAYCANIN TAM BƏRABƏR HÜQUQLARA MALİK VƏTƏNDAŞLARIDIR”

Vurğulamaq yerinə düşər ki, 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Mövcud əlaqələrin inkişafında təbii ki, Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu çıxışların birində qeyd edən Ulu Öndər Heydər Əliyev yəhudilərin əsrlər boyu burada azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirmişdir: ”Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır”.

Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yəhudi icmasının rolunu dəfələrlə qeyd edib. Azərbaycan dövlətinin başçısının çıxışlarının birində vurğuladığı kimi, Azərbaycan və yəhudi xalqları əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb, ölkələrimiz arasında bu dostluq və qardaşlıq münasibətləri bu gün də davam edir. Azərbaycanın yəhudi icması ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə fəal kömək edir. Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Yəhudi icması antisemitizmin olmadığı bu ölkədə o vaxtdan yaşayıb və yaşayır. Hazırda Azərbaycanda 7 sinaqoq, 2 yəhudi ibtidai məktəbi, 3 bağça və 1 ”Yeşiva” fəaliyyət göstərir.

Azərbaycanın əsl qürur yeri olan Qırmızı Qəsəbə bütün dünyada İsraildən sonra dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə unikal məkandır. Azərbaycanda yaşayan yəhudilərin Şabat bayramının Qırmızı Qəsəbədə keçirməsi həqiqətən də buranın onlara doğma diyar olmasından xəbər verir. Burada ayrı-seçkilik kimi hallardan əsər-əlamət yoxdur. Onlar burada sülh şəraitində xoşbəxt yaşayırlar. Odlar diyarında yəhudilər və müsəlmanlar əsrlər boyu dinc yanaşı və harmonik həyat sürürlər. Azərbaycan özünün tolerantlıq nümunəsi ilə dünyada mövcud olan bütün stereotipləri məhv edir. Azərbaycan nümunəsi göstərir ki, əsas dinlərin - iudaizm, xristianlıq və islam dinlərinin nümayəndələrinin qarşılıqlı hörmət əsasında harmonik inkişaf etmələri üçün bu cür dinc yanaşı yaşamaq mümkündür.

*Nəzakət ƏLƏDDİNQIZI*

### *Rəsmi xronika*

Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikasının Baş prokuroru təyin edilib. Trend xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Qeyd edək ki, Kamran Əliyev 2020-ci il mayın 1-də Prezident İlham Əliyevin Sərəncamı ilə Baş prokuror təyin edilib. Onun səlahiyyət müddəti 2025-ci il mayın 1-də başa çatmışdı.

***

İlham Ata oğlu Mirzəliyev ”Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***

Prezident İlham Əliyev ”Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1166-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Ulu Öndər Heydər Əliyev dühası və qüdrətli Azərbaycan!

Zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə tükənməz sevgisi ilə Azərbaycanın Memarı, Qurucusu və Xilaskarı Ulu Öndər Heydər Əliyev düşünülmüş və məqsədyönlü siyasəti ilə dövləti, xalqımızı tarixin ağır və sərt sınaqlarından uğurla çıxararaq, gələcək inkişafın təməlini qoydu. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğurlu səhifələr həkk etdi. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Heydər Əliyev ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində belə deyirdi: "Azərbaycan dövləti demokratik bir cəmiyyət yaradıbdır. Bu demokratik cəmiyyətdə demokratiyanın tələb etdiyi bütün amillər mövcuddur: söz azadlığı, mətbuat azadlığı, insanın bütün azadlıqları, vicdan azadlığı, ayrı-ayrı siyasi təşkilatlar yaratmaq, partiyalar yaratmaq, tamamilə sərbəstlik - yəni demokratiyanın tələblərinə uyğun olan bütün amillər Azərbaycanda bu gün mövcuddur. Bəlkə də ölkəmizi bizimlə bərabər müstəqillik əldə etmiş başqa ölkələrlə müqayisədə, yəni Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə müqayisə edəndə burada bu azadlıqlar daha da çox yer alıbdır. Əgər elə olmasaydı Azərbaycanda bu qədər siyasi partiya olmazdı, Azərbaycanda mətbuat bu qədər azad olmazdı, qəzetlər bu sayda olmazdı və qəzetlərə, mətbuata bu qədər azadlıq verilməzdi Bunlar hamısı demokratiyanın Azərbaycanda mövcud olmasıdır".

## ELMİ-TEXNİKİ CƏHƏTDƏN TƏRƏQQİ ETMİŞ ÖLKƏ

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında



böyük irəliləyiş əldə edilib. Dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

## AZƏRBAYCANIN MÜSTƏQİL HƏYATININ YENİ SƏHİFƏLƏRİ

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı. Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental mahiyyət kəsb etməyə başladı.

15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

## DÜNYA BAZARINDA İQTİSADİ MÜTTƏFİQ

1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin Müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

## DEMOKRATİK DƏYİŞİKLİKLƏRİN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN HƏRTƏRƏFLİ ZƏMİN

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçiliyi tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik". Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır".

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk Konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi.

## "NƏ QƏDƏR AZƏRBAYCAN VAR, MƏN YAŞAYACAĞAM"

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdik. Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Ulu Öndər Heydər Əliyevin ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Özünün dediyi kimi, "Nə qədər Azərbaycan var, mən yaşayacağam. Mən Azərbaycanda əbədi olacağam. Ona görə ki, müstəqil Azərbaycan dövləti əbədi olacaq".

***N.Bayramova***

# Ermənistan bataqlığa çəkilir

## *Qərb və Rusiya İrəvanı Ukrayna yolu ilə aparır*

**"Əgər siz Avropa İttifaqından Ermənistana verilən tərifləri diqqətlə oxusanız, başa düşə bilərsiniz ki, ölkəmiz Cənubi Qafqazın "anti-Rusiya"sı roluna hazırlaşır". Bu barədə Ermənistan mətbuatı yazır. Davamı olaraq qeyd edilir ki, Qərb əmtəə treyderləri, sığorta şirkətləri və gəmiçilik şirkətləri ABŞ sanksiyalarının mümkün ləğvi ərəfəsində Rusiya ilə ticarəti bərpa etməyi düşünürlər. "Financial Times" xəbər verir ki, onlar artıq hüquqşünaslarla bunun necə həyata keçirilə biləcəyini müzakirə edirlər. Nəşr qeyd edib ki, ABŞ prezidenti Donald Trampın Rusiyaya qarşı mövqeyi Qərb şirkətlərini rus şirkətləri ilə ticarəti bərpa etmək üçün öz fəaliyyətlərini necə strukturlaşdıra biləcəklərini soruşmağa məcbur edir.**





Hüquq məsləhətçiləri belə şirkətlər üçün əsas problemin Moskvaya qarşı Aİ və Böyük Britaniya sanksiyalarının qüvvədə qalmasıdır. Clyde & Co hüquq firmasının tənzimləmə və araşdırmalar şöbəsinin rəhbəri Sem Tate deyir ki, ABŞ və Avropa arasında ikitərəfli bölünmə hazırda biznes üçün əsas problemdir. Bəzi şirkətlər bu dəyişiklikləri və onların biznesləri üçün nə demək olduğunu və onlara hazırlanmaq üçün nə edə biləcəklərini planlaşdırır.

HFW-nin tərəfdaşı və sanksiyalar üzrə mütəxəssisi Daniel Martin əlavə edib ki, ABŞ sanksiyaları yumşaldılsa, neft treyderləri əməliyyatlarını bərpa etmək üçün daha çox sərmayəyə ehtiyacı olan neft hasilatçılarından daha çox Rusiya ilə yenidən əlaqə saxlamağa hazır olacaqlar. Və bu cür proqnozları eşitmək, ən əsası isə anlamaq hər birimiz üçün vacibdir: "Çünki bizim qarşımızda sadəlövhcəsinə Ermənistanın müdafiəçilərinin yox funksiyalarını bəxş etdiyimiz şəxslərin nə qədər hesablı, soyuqqanlı və hər cür alçaqlığa hazır olduqlarının daha bir sübutu var. Onlar indi bizim təriflərimizi oxuyur və bizi ruhlandırırlar".

Avropa Xalq Partiyası (AXP) aprelin 29-30-da Valensiyada keçirdiyi qurultayında Ermənistanla bağlı fövqəladə qətnamə qəbul edib. İçində çoxlu qulağa xoş gələn sözlər var idi. Məsələn, AXP bu yaxınlarda Ermənistanın Aİ-yə daxil olması prosesinin təşəbbüskarı olan qanunun qəbulunu yüksək qiymətləndirir. Orada Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakını dayandırdığı üçün erməniləri təqdir etdilər. "Bu dönüş nöqtəsi Ermənistanın Kremlin təsirindən çıxmağa və Avropa dəyərlərinə əsaslanan gələcəyə can atmağa hazır olduğunu əks etdirir", - qətnamədə vurğulanır.

Erməni mətbuatı yazır ki, həmin sənəddə Ermənistanın Avrasiya İqtisadi İttifaqından (AİI) asılılığının azaldılması nəzərə alınmaqla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi səylərinin dəstəklənməsi və AXP-nin ölkədə sülh və təhlükəsizliyin təmin edilməsində vasitəçi qismində Aİ-nin Ermənistandakı mülki missiyasının (EUMA) mandatının uzadılmasını yüksək qiymətləndirdiyinə dair sözlər daxildir: "Bəli, yalnız sözlər, sözlər, sözlər. Əslində isə Ermənistanı Ukraynanın əvvəllər saldıqları yolla aparırlar. Ermənistan Cənubi Qafqazın "anti-Rusiya"sı roluna hazırlanır. Diqqətlə baxın, ölkəmiz nəyə görə təriflənir, hər şey üzə çıxacaq. Bəs Türkiyə-Azərbaycan tandeminin bizə müharibə elan etdiyi anda İspaniya və ya Avropanın bütün demokratik ölkələri birlikdə "artsax"a və Ermənistana yardım etdimi? Xeyr, kömək etmədilər".

Azərbaycana qarşı Rusiyaya tətbiq etdikləri kimi heç bir sanksiyalar tətbiq olunmayıb. Əksinə, martda Bakıda Azərbaycan və İspaniya arasında Strateji İqtisadi Dialoqun ilk iclası keçirilib. Görüş zamanı Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə İspaniya Krallığının İqtisadiyyat, Ticarət və Biznes Nazirliyi arasında strateji iqtisadi əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Onu da qeyd edim ki, bu ilin sonuna kimi Azərbaycan sahibkarlarının İspaniyaya səfərinin təşkili planlaşdırılır. Üstəlik, Azərbaycan mətbuatının yazdığına görə, Bakıda İspaniya səfirliyinin açılması da nəzərdə tutulub. Sözlərlə əməli hərəkətlər arasındakı fərq budur. Merkantil Avropa ölkələri Rusiya ilə əməkdaşlığı bərpa etməyə can atırlar. Onlar Azərbaycanla "iş görməkdən" məmnundurlar.

Ukrayna ingilislərə, fransızlara, almanlara və amerikalılara güvənərək özünü bataqlığa sürüklədi. Böyük ərazilərini itirdi, klassik iflasa uğramış dövlətə çevrildi və təbii sərvətləri artıq "müttəfiqləri" arasında bölünür. Ermənistan üçün də istədikləri budurmu? Bütün bu suallara hər bir erməni özü cavab verməlidir. Dürüst və mümkün qədər tez. Çünki o zaman çox gec ola bilər.

*Ardı Səh. 5*



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

## Ərdoğan və Netanyahu Azərbaycana gəlirlər - saatlar Bakı vaxtı ilə qurulur...

### "Bu iki liderin səfəri o deməkdir ki, Bakı dünya siyasəti və bölgənin gələcəyi üçün qərarverici mərkəzə çevrilib"

Son bir ay ərzində Azərbaycan rəhbərliyinin olduqca düşünülmüş və strateji xarici siyasət kursu Azərbaycanı heç vaxt olmadığı qədər dünya və bölgə siyasəti üçün cəzbedici ölkəyə çevirib. Prezident İlham Əliyevin Çinə səfəri, imzalanan sənədlər və birgə bəyanat sözün əsl mənasında siyasi partlayış hesab oluna bilər. İlk əvvəl ona görə ki, artıq dünya siyasəti və iqtisadiyyatı üçün bir nömrəli ölkə halına gələn Çinlə bu səviyyədə tərəfdaşlıq qurulması Azərbaycanın dünya və böəlgə siyasətindəki imicini yüksəldir və əlini gücləndirir. Çünki Cənubi Qafqazın və keçmiş sovet respublikalarının heç biri - Rusiyanı çıxmaq şərti ilə - Çin ilə bu səviyyəli tərəfdaşlıq qura bilməyib.

Bölgənin əsas neft və qaz istehsalçısı, Avropa üçün isə əsas enerji tərəfdaşı sayılan, qoca qitənin enerji təhlükəsizliyi üçün cavabdeh səviyyəyə çatan Azərbaycanla Çin kimi dünya nəhənginin tərəfdaşlığ qurması rəsmi Bakının Cənubi Qafqazdakı siyasi çəkisini on qat artırır. Bu, heç şübhəsiz ki belədir. Üstəlik, Azərbaycan Prezidentinin Çin səfərindən dərhal sonra İran Prezidenti Məsud Pezeşkianı Bakıda qarşılaması, aparılan danışıqlar və İran dövlət başçısının Azərbaycanın bölgə üçün böyük siyasi əhəmiyyətə sahib olması barədə dedikləri tam bir siyasi qələbə hadisəsidir.

Çox zaman Azərbaycana qarşı xoş olmayan mövqedə duran, bunun əksinə olaraq Ermənistanı dəstəkləyən rəsmi Tehranın bu gün Bakı ilə isti münasibətlərə üstünlük verməsi də önəmli hadisədir. Bu, həm də rəsmi Bakının geosiyasi məkanda olduqca bacarıqlı siyasət kursu reallaşdırması, Azərbaycanın əhəmiyyətli ölkə imicinə sahib olması ilə izah olunmalıdır. Bu, tərif deyil, bu, gerçəklikdir. İqtidar və ya müxalifət mövqeyində durmasından asılı olmayaraq ədalətli və real siyasəti dərk edən hər kəs bu siyasi ustalığı qiymətləndirməyə bilməz.

İndi isə dünya və bölgə siyasəti üçün mühüm iki dövlətin - Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın və İsrailin Baş naziri Benyamin Netanyahunun Bakı səfəri gözlənilir. Bu, zaman dəqiqliyi ilə hesablanan vacib səfərlərdir. B.Netanyahunun və Ərdoğanın Bakı səfərləri təkcə qardaş və dost iki ölkənin Azərbaycanla tərəfdaşlığı, habelə əlaqələrin coğrafiyasını genişləndirmək baxımından deyil, həm də bölgənin gələcək təhlükəsizliyi baxımından həddindən artıq böyük önəm daşıyır. Artıq dünyanın nüfuzlu nəşrlərində və siyasi mərkəzlərində Türkiyə və israil liderlərinin bakı səfəri, aparılacaq danışıqlar və əldə olunacaq razılaşmalar barədə ciddi müzakirələr gedir. Xüsusilə bir məqama nəzər yetirməliyik ki, son illər Türkiyə və İsrail arasındakı soyuq münasibətlər fonunda hər iki dövlət liderinin eyni vaxtda Bakıya səfər etmələri o deməkdir ki, Ərdoğan və Netanyahu arasında Bakıda görüş və müzakirələrin keçirilməsi də gözlənilir. Əlbəttə, bölgənin və dünya siyasətinin iki mühüm dövlətinin Bakıda təmaslar qurması, Türkiyə və İsrail arasındakı münasibətlərin yaxşılaşdırılması, bölgədə gələcəkdə gözlənilən proseslərə bu səfərin təsirləri tarixi önəm daşıyır. Çünki həm Türkiyə, həm də İsrail Yaxın Şərqdə, xüsusilə Suriya məsələsində mühüm maraqlara sahibdirlər. Hər iki liderin Bakı səfəri gerçəkləşərsə, bu o deməkdir ki, dünya və bölgə siyasəti üçün saatlar Bakı vaxtı ilə qurulur...

Əvvəli Səh. 4

## Politico: Avropanın Azərbaycana və Ermənistana fərqli baxışı var

Ermənistan Avropanın Azərbaycana və Ermənistana fərqli istiqamətlərdən yaxınlaşdığınının fərqindədir. Və bu yanaşmadan çox narahatdırlar. Erməni mətbuatı qondarma "erməni soyqırımı" adlı şouya Avropanın münasibətindən yazarkən "Politiko" nəşrinə istinad edib: "Aprelin 24-də bütün dünya erməniləri 1915-ci il soyqırımı zamanı həlak olan 1,5 milyon insanın xatirəsini ehtiramla yad ediblər. Bununla belə, Aİ-nin xarici siyasət üzrə komissarı Kaja Kallas regional turu çərçivəsində Ermənistana deyil, qonşu Azərbaycana səfər etməyi lazım bilib. Ermənistan vətəndaşları İrəvanda həlak olanların xatirəsinə əklillər qoyarkən Bakıda yüksək səviyyəli avropalı diplomatın kameralara gülümsəməsinin nə mənası var?".

"Siz Bakıya səfər edirsiniz, İrəvandan isə qaçırsınız. Azərbaycan bizim dəyərlərimizi rədd edərkən, Ermənistan Avropa İttifaqına yaxınlaşır", - bunu isə Bundestaqın keçmiş deputatı Maykl Rot yazıb. Əlavə edib ki, 2018-ci ildə baş verən məxməri inqilabdan sonra ölkə islahatlar həyata keçirib. Ermənistanın gələcəyini Avropa ilə əlaqələndirmək üçün ictimai tələbi əks etdirən Aİ-yə üzvlük prosesinə başlamaq üçün qanun qəbul edib. İrəvan indi öz sərhədlərində Aİ-nin monitorinq missiyasına ev sahibliyi edir, fəal şəkildə özünü Rusiyadan uzaqlaşdırmağa və Qərblə daha dərin tərəfdaşlıq qurmağa çalışır, bir sözlə, Ermənistan Aİ-nin şərq tərəfdaşlarından tələb etdiyi hər şeyi edir, Qərbə baxır.

# Ermənistan bataqlığa çəkilir

*Qərb və Rusiya İrəvanı Ukrayna yolu ilə aparır*






Bütün bunlara baxmayaraq, Avropa Rusiya qazından imtina etməyə çalışdığı vaxtdan Azərbaycana xoş tərəfdaş kimi yanaşır. 2022-ci ildə Aİ Bakı ilə qaz idxalını iki dəfə artırmaq məqsədi daşıyan böyük enerji memorandumu imzalayıb. Əliyevin yanında dayanan Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen isə məşhur şəkildə ölkəni etibarlı təchizatçı adlandırıb.

Fransanın Avropa Parlamentinin üzvü və keçmiş Avropa İşləri Naziri Natali Loiseau qeyd edir ki, eyni səfərdə Ermənistana səfər etmədən birbaşa Azərbaycana getmək avropalıların səhvidir. Bunu Qarabağdan öz arzu və istəkləri ilə köçən ermənilərlə əlaqələndirib. Halbuki, baş verənlərdə Ermənistan hökumətinin, erməni kilsəsinin və erməni diasporunun birbaşa günahı və iştirakı, təhriki var. Qarabağdan 1988-93-cü illərdə azərbaycanlıların, 2023-cü ildə isə ermənilərin köçünü müqayisə etmək kifayətdir ki, kimin səhv, kimin isə düz olduğunu aydınlaşdırasan. Bəzi avropalı siyasətçilər düşünürlər ki, guya enerji sövdələşmələri və geosiyasi ehtiyatlılıq Azərbaycanın "təcavüzünə" beynəlxalq reaksiyanı çox uzun müddət susdurub. İndi məlum olur ki, Qarabağ münaqişəsinin həllində ədalətli olmayan Qərbin məqsədi nə imiş. Qərb 25 il müxtəlif platformalardan, əlinin, ününün yetdiyi yerlərdən Ermənistanın Azərbaycan torpaqlarına təcavüzünə haqq qazandırıb, "öz müqəddəratını təyinetmə hüququnu" ölkələrin suverenlik, ərazi bütövlüyü prinsiplərindən üstün tutub. Ərazilərimiz düşmən tapdağında qalsa da, insanlarımız əsir, girov götürülsə də, öldürülsə də, bir milyondan artıq azərbaycanlı öz evindən qovulsa da avropalılar bundan zərrə qədər də narahat olmayıblar.

## Oskanyan: "Paşinyan getməlidir"

Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan erməni mətbuatında dərc etdirdiyi məqaləsində yazır: "Bu gün ermənilərin əksəriyyəti bir əqidə ətrafında birləşib: Baş nazir Nikol Paşinyan getməlidir və nə qədər tez olsa, bir o qədər yaxşıdır. Fərqlər yalnız aradan qaldırılma üsuluna aiddir: parlamentə etimadsızlıq səsverməsi, kütləvi etirazlar, növbədənkənar seçkilər və ya 2026-cı ildə planlaşdırılan seçkiləri gözləmək. Bununla belə, bu mexanizmlərdən hər hansı birinin işləyəcəyinə dair geniş skeptisizm var. Amma bir şey dəqiqdir: Ermənistan daha bir gün də Paşinyanın rəhbərliyi altında qala bilməz. Ölkə müasir tarixinin ən təhlükəli dövrlərindən birini yaşayır. Paşinyanın dönəmində milli təhlükəsizlik, xarici siyasət, demokratik idarəçilik, iqtisadi sabitlik və milli həmrəylik sahələri əhəmiyyətli dərəcədə pozulub və zəifləyib. 2018-ci ildə ümid və transformasiya vədləri ilə başlayan - şəffaflıq, ədalət və regenerasiya - indi özbaşınalıq, səriştəsizlik və strateji uğursuzluq dövrünə çevrildi. Bu gün göz qabağındadır ki, Paşinyan nəinki mövcud çağırışların öhdəsindən gələ bilməyib, həm də əldə olunan uğurları puça çıxarıb, ölkənin zəifliyini artırıb. Ermənistanın gələcəyi naminə o getməlidir. Yeni bir yol qurmağın vaxtı gəldi".

Oskanyan Paşinyanın uğursuzluğunun kökündə onun xarici və təhlükəsizlik siyasətini fəlakətli idarə etməsi dayandığını deyir: "Strateji dərinliyin zərurət olduğu bir bölgədə o, təcrübə, baxış və nizam-intizam olmadan rəhbərlik edirdi. Onun ziddiyyətli ritorikası və birtərəfli güzəştləri ilə Azərbaycana yanaşması Bakını cəsarətləndirib, İrəvanı təcrid edib. Onun hakimiyyəti dövründə Ermənistan Qarabağı itirdi, 120 mindən çox erməni didərgin düşdü, çoxəsrlik icma məhv edildi. Bunlar müharibənin qaçılmaz nəticələri deyildi. Bu, geosiyasi reallığa hazır olmayan yoxsul və səmərəsiz rəhbərliyin birbaşa nəticəsi idi. Paşinyan müharibədən sonra vəziyyəti sabitləşdirmək əvəzinə vəziyyəti daha da pisləşdirdi. O, Ermənistanı strateji ziddiyyətlərə sürükləyib, xarici tərəfdaşlara aydın olmayan siqnallar verib və aydın siyasi xətt formalaşdıra bilməyib. Onun səhvləri bütün əsas personajları ondan uzaqlaşdırdı".

Keçmiş diplomat qeyd edir ki, Moskva Paşinyanı etibarsız, Tehran şübhəli, Ankara və Bakı isə mənfur görür. Vaxtilə ona demokratik intibahın simvolu kimi baxan Qərb indi onu xarici maraqlara xidmət edən itaətkar agentdən başqa bir şey kimi görmür. Ermənistanın beynəlxalq təcrid olunması təsadüfi deyil. Bu, səlahiyyətdən, strateji düşüncədən və diplomatik bacarıqlardan tamamilə məhrum olan liderin proqnozlaşdırıla bilən nəticəsidir.

Oskanyan Ermənistanın iqtisadi baxımdan guya tərəqqi etdiyinə də aydınlıq gətirib: "Hökumətin hesabatlarında qeyd olunan artım Qərbin sanksiyalarının Rusiya iqtisadiyyatına təsiri ilə şişirdilmiş təhrif edilmiş statistikaya əsaslanır. Amma adi vətəndaş üçün bu artım illüziyadır. İnflyasiya, durğun əmək haqqı, artan borc və az investisiya gündəlik reallıqdır. Kökünün kəsiləcəyi vəd edilən korrupsiya sonda institutlaşmaya çevrildi. Dövlət vəsaitləri sui-istifadə edilir, sadiq olanlar ləyaqətsiz şəkildə səxavətlə mükafatlandırılır, maliyyə şəffaflığı unudulur. Köhnə vərdişlər pozulmayıb, daha da dərinləşib, qablaşdırma dəyişib. Eyni zamanda Ermənistanın sosial quruluşu dağılır. Qütbləşmə, inamsızlıq və siyasi tükənmə ictimai həyatın xüsusiyyətləridir. Dövlət çətin günlərdə milləti birləşdirmək əvəzinə, ayrılıqları dərinləşdirir. Bununla belə, hətta nüfuzunun və ictimai dəstəyinin görünməmiş şəkildə azalması fonunda belə, Paşinyan hakimiyyətə ictimai maraqlara xidmət etmək üçün deyil, öz mövqeyini təmin etmək üçün yapışır".

Bəli, Ermənistanda siyasi mühit hər keçən gün tündləşir. Böhranın mahiyyəti də məhz bundan ibarətdir. Siyasi müxalifət problemin kökünü Paşinyanda axtarır, onun mövcudluğunun vəziyyətdən çıxış imkanlarını daraltdığını düşünürlər. Amma onu da bilirlər ki, Paşinyanın uzaqlaşdırılması bütün problemləri həll etməyəcək. Ermənistanın ləyaqətini, nüfuzunu və strateji istiqamətini bərpa etmək üçün hələ çox illər gözləməli olacaq.

***V.VƏLİYEV***

# "Şərhçilərimiz futboldan kənar danışır"

**İdman kanallarımızı izləyərkən şərhçi-icmalçının parazit sözlərindən, vulqar ifadələrindən bezən tamaşaçı oyun başlayan kimi "nə deyir ə, o!?" deyinərək, qaş-qabağını turşudur, mısmırığını sallayır və təzcə kanalı dəyişir. Şərhçilərimiz bu cür şit və çiy ifadələrdən geninə-boluna istifadə edərək, izləyiciləri əməlli-başlı bezdirir, olan-qalan azartı, bütün oyun marağını yerli-dibli məhv edirlər. Bu mövzu ilə bağlı SİA şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb.**




**Şəhər sakini Eldar Həsənov:** "Hansı sahə olursa-olsun, istər musiqi, istər idman və ya digər sahələrdə aparıcının özünün səriştəsi olmalıdır. Bu sənəti oxuyub, bitirən adam olmalıdır. Yəni bir sözlə bu



işə bələd olan, işinin peşəkarı olan adam olmalıdır. Məsələn, Sovetin vaxtında bizim gözəl idman və futbol şərhçilərimiz olub. Bunlara misal olaraq Kote Maxaradze, Nikolay Ozerov, bizim şərhçilərimizdən Çingiz İsmayılov maraqlı verilişlər və futbol oyunları aparıb. Bu sadaladıqlarım hamısı öz dövrünün möhtəşəm idman aparıcıları olub. Onlar futbolu da yaxşı bilirdilər, oyunçuları da yaxşı tanıyırdılar. Onlar həm də futbolun taktikasını və strategiyasını çox yaxşı bilirdilər. Düzdür, indiki şərhçilərimiz də yaxşıdı və çox narazılıq etmirəm. Amma bəzən oyunun gedişatını insanlara çatdıra bilmirlər. Amma keçmiş aparıcılar elə idi ki, oyunun başlamağı ilə oyunun sonunu sanki bilirdilər. Çünki onlar oyunu hiss edirdilər və bilirdilər. Lakin açıb ağartmırdılar. İndiki şərhçilərimizdən xahiş edirəm ki, oyunu daha səriştəli aparsınlar, daha təcrübəli olsunlar".

**Şəhər sakini Mirzəcan Salmanov:** "Şərhçilərimizin əlbəttə ki, danışıqlarındakı norma pozuntuları sözsüz ki, yolverilməzdir. Həmin futbol insanlara televiziya vasitəsilə böyük kütləyə çatdırılır. Fikrimcə, daha yax-



şı onların hansısa təlim və ya tədris prosesindən keçərək oralara gəlirlər. Onların oyunları düzgün şərh etmələri və daha düzgün nitqinin inkişaf etdirilməsi onlara öyrədilə bilər. Amma bununla belə, artıq biz görürük ki, əvvəllər şərhçilərimizdə heç ümumiyyətlə həvəs belə yox idi. Amma son dövrlərdə bir həvəs artıb. Sanki daha maraqla oyunları şərh edirlər. Düzdür, danışıqlarında müəyyən problemlər ola bilər, lakin insanların oyunlara olan marağı onların sayəsində artıb. Əvvəllər xarici kanallardan oyunu izləyirdiksə indi öz idman telekanallarımızdan oyunları həvəslə izləyirik. Bu isə həqiqətən də bizim idman telekanllarının inkişafının olduğunu göstərir. Özüm də bir gənc olaraq futbolu sevirəm və bütün Azərbaycan gəncləri də fikrimcə, futbolu sevirlər".

**Şəhər sakini Yaşar Mehdizadə:** "Fikrimcə, bizim şərhçilərimiz bir az daha təcrübəli olmalıdırlar. Xarici telekanalların şərhçi-



lərinin şərhlərini izləməlidirlər. Amma onu da qeyd edim ki, bizim oyunları şərh edən şərhçilərin şərhlərini bəyənirəm. Lakin bir az öz üzərlərində işləsələr daha yaxşı olar. Bir də onlardan xahiş edirəm ki, oyunçuların adını düzgün desinlər. Məsələn, Hari Keynin adını mən bir dəfə eşitmişdim Hərii Keyn deyə səsləndirmişdi. Fikrimcə, bu düzgün deyil".

**Şəhər sakini Soltan Həsənli:** "Xaricilərdə bəzən çox danışıqlar qəribə olur. Amma öz şərhçilərimizi daha çox bəyənirəm. Bi-



zim idman şərhçiləri mən bir futbol azarkeşi olaraq deyə bilərəm ki, bizim şərhçilər digər xarici şərhçilərdən heç də geri qalmır".

**Şəhər sakini İsmət İsrafilzadə:** "Mən onu deyə bilərəm ki, bu cür səsləndirmələr çox yersizdir. Hansısa bir oyunçunun adını başqa cür demək, mənim fikrimcə, düzgün



deyil. Amma bəzi səsləndirmələr var ki, onlara normal baxıram. Əsas odur ki, hansısa bir futbolçu haqqında şərhçi neqativ bir şey deməməlidir. Amma tam olaraq şərhçilərin oyunu şərh etməsi fikrimcə, çox yaxşıdır".

**Şəhər sakini Elgun Novruzov:** "Bizim oyunçular daha yaxşı oynadıqda bizim spi-



kerlər də bu hala istər-istəməz sevinir. Bunun da nəticəsi olaraq onlarda istər-istəməz bir az bu sevinc dozasını qaldıra bilir. Amma belə ümumilikdə götürsək bizim şərhçilərimiz oyunları çox gözəl şərh edirlər. Hətta xatırlayıram ki, keçən il "Qarabağ" klubu avroliqada "Braqa" ilə oyunda bizim idman şərhçimiz Ramiz Mirzəzadənin bir sözü sosial şəbəkələrdə günlərcə danışılmışdı. Səhv etmirəmsə o, belə demişdi: "Bitdi bitməyən bu 90 dəqiqə" və bu çox maraqlı bir şərh idi".

**Şəhər sakini Cəlil Həmidov:** "Ərəb şərhçilər oyunları daha maraqlı şərh edirlər. Amma bizim şərhçilərin də yaxşıları var. Düzdür, adlarını bilməsəm də, amma səsləri və oyunu şərh etmələri çox gözəldir. Həmçinin keçən il Türkiyənin oyununda Mert Günokun qurtarışını edən bir şərhçimiz var idi. Mən şəxsən onu çox bəyəndim. Amma bə-



zən olur ki, şərhçilərimiz futboldan kənar danışır və oyun zamanı bayağı şərh edirlər. Fikrimcə, bu olmamalıdır".

***Ziya Hikmətoğlu***

# Avropaya təhlükələr vəd edən YENİDƏN SİLAHLANMA

***Avropa ölkələrinin hərbi baxımdan yenidən "güc" toplamaq, hansısa potensiala sahib olmaq, ən azından özünü müdafiə etmək adı altında silahlanmaq niyyətləri barədə artıq bir müddətdir ki, çox eşidirik. "Od olmasa tüstü çıxmaz" zərb məsəlində də deyildiyi kimi, əgər avropalıların hərbi güc, silahlanma istəyi olmasaydı, bu barədə heç bir spekulyasiyalara da rast gəlinməzdi. Rast gəliriksə, deməli, belə bir istək var və nədən irəli gəldiyi, nəyə görə olduğu, nələrə, xüsusən də hansı təhlükələrə səbəb olacağı barədə suallar da meydana çıxır. Belə məlum olur ki, həqiqətən də yenidən silahlanma Avropa üçün təhlükələr vəd edir...***



## Ağıllarına gələni danışanlar elə məhz Avropanın təhlükələrə sürüklənməsinə biganə olanlardır

Diqqətə çatdıraq ki, aprelin 14-də Almaniya kansleri postuna namizəd olan Fridrix Merts öz müsahibəsi zamanı Ukraynanı "Taurus" qanadlı raketlərlə təchiz etmək barədə çağırış edib. Mertsin fikrincə, onlardan, yəni, həmin o qanadlı raketlərdən məhz Krım körpüsünü vurmaq üçün istifadə edilməlidir. "Əgər bu baş verərsə və məsələn, Rusiya ordusunun təchizatlarının böyük hissəsinin yerləşdiyi Krımla Rusiyanın ən mühüm quru əlaqəsi məhv olarsa, bu, Ukraynanı strateji baxımdan əlverişli mövqeyə qoymağın bir yolu olardı", deyə Merts bildirib. Bəli, Merts əlverişli mövqe dedikdə, yalnız və yalnız əlverişli, sərfəli hal barədə, sərfə haqda düşünür. Amma bunun hansı nəticələr verəcəyi müəmmalı olaraq qalır.

Görəsən, Almaniya kansleri postuna namizədin bəyanatı hansı nəticələrə gətirib çıxara bilər? Nə üçün Avropa İttiaqı müstəqil hərbi ittifaq olmaq istəyir? Bəs Avropa ölkələrinin ordularının yenidən silahlanmasına neçə milyard avro xərcləmək istəyirlər? Yenidən silahlanma üçün təqribən 800 milyard avro həddində pula ehtiyac duyulduğu barədə fikirləşən olubmu? Fikirləşən olubmu ki, ümumiyyətlə, bu vəsaitlər haradan əldə olunacaq? Bütün bunlar bir tərəfə, bəs yaxşı, həmin o yenidən silahlanmanın hansısa təhlükə riski barədə düşünülübmü? Belə məlum olur ki, ortaya qoyulan suallar barədə Merts heç düşünməyib də. Yaxud, düşünübsə, düşünərək də həmin fikirlərini səsləndiribsə, deməli, onun ağlına, dərrakəsinə bəzi təhlükəli məqamlar heç yerləşməyib və sığışmayıb da. Yerləşsəydi və sığışsaydı, ən azından tamamilə başqa aspektdən, tamamilə başqa rakursdan yanaşaraq bu barədə fikir bildirərdi. Belə görünür ki, qanmayıb. Məlum olur ki, Merts yenidən silahlanmanın, hərbi baxımdan hansısa addımların aytılmasının gələcək risklərini heç hesaba da almayıb. Ya da, belə məlum olur ki, Fridrix Merts bilərəkdən belə təkliflə çıxış edirsə, deməli, bütövlükdə Avropanın təhlükələrə sürüklənməsinə belə biganədir. Ümumiyyətlə, görünən odur ki, ağıllarına gələni danışanlar elə məhz Avropanın təhlükələrə sürüklənməsinə biganə olanlardır.

## Merts Avropa ilə koordinasiyaya çağırır

Fridrix Mertsin sözlərinə görə, Ukrayna yalnız avropalı tərəfdaşlarla razılaşdırılaraq, koordinasiya edilərək, raketlərlə təmin oluna bilər. Artıq "belə təchizatla" onlar məşğul da olurlar. "Britaniyalılar da bunu edir, fransızlar da bunu edir, amerikalılar da bunu edir və hər halda, bu, razılaşdırılmalı, əlaqələndirilməli, koordinasiya edilməlididir", deyə Almaniya kansleri postuna namizəd qeyd edib. Deməli, Fridrix Merts açıq-aşkar şəkildə koordinasiya çağırışı edir. Özü də bu "çağırışı" ilə birbaşa olaraq, yenidən silahlanmanı, hərbi gücü nəzərdə tutur. Bununla belə, Almaniyanın ən böyük müdafiə şirkəti "Rheinmetall"-ın rəhbəri Pappergerin fikrincə, bu sursatların Ukrayna Silahlı Qüvvələrinə tədarükü münaqişənin axarını dəyişməyəcək. Müdafiə şirkətinin rəhbəri bilir ki, onsuz da hansısa silah, hansısa formada tədarük edilən sursatlar məntiqi sonluğa zərrə qədər də təsir edən deyil. Əvvəla ona görə ki, silahların nə və nə qədər olduğundan onun daha yaxşı xəbəri var və bunun mahiyyəti də ona daha çox bəllidir. Bilir ki, Almaniya "anbarlarında" həmin raketlərdən cəmi bir neçə yüz sayda var və hətta onların bir çoxu da istifadə üçün yararsızdır.

## Qondarma koalisiya iclasında nələr müzakirə olunub?

Bundesverin yüksək rütbəli zabiti Karsten Breuer Almaniya ordusunun qarşıdakı illərdə yenidən silahlanacağını və hücuma hazırlaşdığını iddia etməklə, Rusiya ilə müharibəyə hazırlaşılacağını da bildirib. Qərb ölkələrinin siyasətçiləri və müdafiə nazirləri Brüsseldə qondarma silahlanma ilə bağlı arzu edənlərin koalisiyasının toplantısı zamanı Rusiya ilə qarşıdurma planlarını müzakirə ediblər. Həmin planlar heç də birmənalı qarşılanmayıb, baxmayaraq ki, onları dəstəkləyənlər də orada hətta olublar. Müşahidələr məntiqi nəticələr çıxarmaq üçün yetərincə əsas verir. Ən azından Avropada olanlar narahatlıqların təzahürü kimi özünü göstərir. Səbəb də birbaşa olaraq, Amerikanın mövqeyi ilə bağlıdır. Diqqətə çaydıraq ki, Donald Trampın təmsil etdiyi yeni ABŞ administrasiyası NATO müttəfiqlərinə dəstəyi yenidən nəzərdən keçirir və bu da avropalı məmurlar arasında açıq-aşkar "panikaya" səbəb sayılır. Çünki həmin məmurlar hamıdan da yaxşı bilirlər ki, hazırda Avropa Amerikanın silah təchizatından çox asılıdır. Beləliklə, bəzi analitiklərin fikrincə, tədarük strukturundakılar yalnız 22%-i Avropa zavodlarından olan, yarıdan çoxu isə Amerika müəssisələrinin məhsullarıdır. Bütün bu statistik məqamlar da öz sözünü deyi. Hər halda, görünən, göz önündə olan rəqəmlər də çox şeydən xəbər verir. Daha dəqiq desək, Amerikadan və amerikalılardan asılılıq təkzibedilməzdir. Yəqin ki, müzakirələr də bu baxımdan təsadüfi olmayıb...

Aİ hərbi ittifaq barədə istəyini gizlətmir

Açıq-aşkar görünür ki, NATO sıralarında fikir ayrılığı var. Avropa ölkələri ABŞ-ın hərbi gücünə arxalanmağa alışıblar. Amma indi Avropa İttifaqı təkcə siyasi və iqtisadi ittifaq deyil, həm də müstəqil hərbi ittifaq olmaq istəyir. Təbii ki, onlar Rusiyaya qarşı mübarizə aparmaqla, "döyüşməklə" yanaşı, dostluq etməyi də planlaşdırırlar və bu dəfə məsələ təkcə səs-küylü bəyanatlarla məhdudlaşmır. Hollandiyada ikinci həftədir ki, təkcə "manevrlər" deyil, ruslarla əsl "toqquşmaya" hazırlıq gedir. "Düşmənimizin bizimlə qarşılaşacağı əraziyə quru və dəniz qüvvələrinin tez bir zamanda çıxışını təmin edə bildiyimizə əmin olmaq bizim üçün çox vacibdir", deyə NATO-nun Müttəfiq Hava Komandanlığının komandir müavini Conni Strinqerin bildirməsi bunun, məhz haqqında qeyd olunan "hazırlığın" əyani sübutudur. Belə çıxır ki, "hazırlıq" ifadəsi təkcə sözdə deyil. Artıq hazırlıqların reallıqda da olduğu öz təsdiqini tapır. Bu reallığı nəyin ki, görmək, bilmək çətin deyil, ümumiyyətlə, bunu heç gizlədən də yoxdur. Hətta Avropanın bəzi nəşrləri belə bu barədə açıq şəkildə bildirirlər. "Le Figaro" yazır ki, Fransa hərbçiləri Rumıniya ilə Ukrayna və Moldova arasında sərhəddə yerləşən ərazinin xəritələrini yeniləyib. Deməli, hərbi ittifaq olmaq istəyi ortadadır. Görünən odur ki, Aİ artıq çoxdandır hərbi ittifaq barədə istəyini gizlətmir.

## Avropa ölkələrinin ordularının yenidən silahlanması xoş qarşılanmır

Martın sonunda Avropa İttifaqının rəhbərliyi müdafiə ilə bağlı iki mühüm sənəd təqdim edib. Birincisi, ümumi strategiyaları təsvir edən ağ bir kağız, ikincisi isə, Avropa hərbi-sənaye kompleksinin yenidən silahlanması və inkişafı planı olub. Bəllidir ki, birincisi, bu, mümkün qədər amerikalılardan mücərrəd şəkildə daxili müdafiəsidir. Fərdi "mübahisələr" də burada özünü göstərir. Bir növ göstərilir ki, hətta bizdə olmasa da, onu Cənubi Koreyadan, yaxud da başqa yerdən alacağıq. Hətta amerikalıların nəzərdə tutduqları da bura daxildir. Amma əsasən, təbii ki, bu, daxili qüvvələr üçün hesablanmadır. İkinci amil, əslində, Rusiyanın açıq-aşkar ekspert qarşıdurması, fəqrqli yanaşmala deməkdir.

Nəzərə çatdıraq ki, Avropa ölkələrinin ordularının yenidən silahlanmasına 800 milyard avro xərclənməsi nəzərdə tutulur. Onu da vurğulayaq ki, bu, böyük məbləğdir. Bəs bunu haradan almaq planlaşdırılır? Axı bir çox Avropa ölkələri ÜDM-nin 2%-ni belə müdafiəyə ayıra bilmir, NATO nizamnaməsi onlardan bunu tələb edir. "Bu 800 milyard vəsait ayrılması çərçivəsində nə baş verəcək? Müəyyən sənaye sahələrinə birbaşa sponsorluq olacaq, üstəlik regional layihələrdən müdafiə sənayesinə vəsait yenidən bölüşdürüləcək və bu, narazılığın dərhal artacağı anlamına gəlir", deyə qeyd edən hərbi ekspertlər çox həssas məqamları da nəzərdən qaçırmırlar. Ona görə xoş qarşılanmır ki, bunun, yəni silahlanmanın təhlükələr vəd etdiyi hər kəsə bəllidir. Elə məhz ona görə də Berlində müharibə əleyhinə nümayiş təsadefi sayılmır...

***İnam Hacıyev***

# "Nar"ın dəstəyi ilə tələbələr üçün təlimlər keçirildi




Sərfəli təklifləri və regionlara diqqəti ilə seçilən "Nar" Gəncə şəhərində yerləşən Azərbaycan Texnologiya Universitetinin (ATU) tələbələri üçün təlimlər təşkil edib. Bu təşəbbüs tələbələrin peşəkar bacarıqlarını inkişaf etdirmək və onların iş bazarına hazırlığını artırmaq məqsədini daşıyır. Təlimlərdəmobil rabitənin əsasları ilə bərabərəmək bazarında təcrübə qazanmaq, eləcə də, uğurlu karyera hədəflərinin seçilməsi istiqamətində faydalı biliklər təqdim edildi. Bundan başqa, universitetin nəzdindəki Nar Laboratoriyasının avadanlıqlarının təqdimatı və işləmə prinsipləri ilə tanışlıq məqsədilə, universitetinmüəllim heyətinə xüsusi təlim keçirildi. Bu təlim sayəsində tələbələr mobil rabitə şəbəkəsini təhsil aldıqları müddətdə öz müəllimlərindən öyrənə biləcək və təhsillərini təcrübəli kadr kimi başa vuracaqlar. Təlimlər "Nar"ın Korporativ Sosial Məsuliyyət strategiyasının təhsil istiqaməti üzrə və Azərbaycan Texnologiya Universiteti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. "Nar"ın məqsədi universitetin tələbələrini əsl peşəkar kimi yetişdirərək Azərbaycanın əməkbazarı üçün mütəxəssis hazırlamaq və ölkənin mobil rabitə sahəsinin inkişafına töhfə verməkdir. "Nar"ın həyata keçirdiyi təhsilyönümlü sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.



## FELYETON

# İmtahan, imtahan, yenə də imtahan...

-Molla əmi, imtahan nədən yanadır?

-Nədən yana olacaq, ay bala, adamın biliyini göstərməsindən yana.

-Ay Molla əmi, bir insan ömründə neçə dəfə imtahan verməlidir?

Molla əmi fikirləşir. Aradan xeyli vaxt keçir, elə hey fikirləşir.

-Ay Molla əmi, nə oldu?

Molla əmi susur. Şəhadət barmağını gicgahının üzərinə qoyub gözlərini yumur, dərin bir nəfəs alır. Birdən gözlərini açıb ətrafı yaxşıca süzür və deyir:

-İmtahan var, imtahan da... Təhsil almaq istəyəndə hökmən verməlisən. Bir də Allah qarşısında imtahan var.

-Yox, Molla əmi, Allah qarşısındakı imtahanı bura qatmayaq. Gəl, hələlik elə təhsildəki imtahandan danışaq. Bax, sizin vaxtınızda nə məktəb vardı, nə də təhsil. "Molla Nəsrəddin" camaatın maariflənməsi yolunda canını qoydu, elədirmi?

-Əlbəttə, elədir.

-Sonra da ölkəmiz başdan-başa məktəblərlə doldu. Uşaqlarımız məktəblərə getdi, təhsil aldı. Universitetlər, institutlar, texnikum, kolleclər yaradıldı. Təhsil alanların sayı hər il artdı. Və biz ziyalı bir cəmiyyəti formalaşdıra bildik. Sonra nə oldu, bilirsən?

-Nə oldu, bala?

-O oldu ki, bizim insanları imtahan etməkdən o qədər xoşumuz gəldi ki, başladıq onları işləmək üçün də imtahan etməyə...

-Bıy, başıma xeyir. Məgər onları darelfunlara götürəndə imtahan etməmişdiniz?

-Əlbəttə, etmişdik.

-Bəs iş üçün nə imtahan?

-Nə bilim, Molla əmi, elə bunu səndən soruşmaq istəyirəm də.

-Ay bala, onda belə çıxır ki, sizin özünüzün özünüzə inamı yoxdur.

-Ola bilər, özümüzə inanmayaq?

-Niyə olmur ki. Bəs yaxşı, bundan imtahan götürüb darelfuna qəbul etmişiniz, bəs işləmək üçün nə imtahan? Belə çıxır ki, siz nə özünüzə inanırsınız, nə də təhsilinizə.

***

Söhbətin bu yerində ağsaqqal Hüseyn müəllim bizə yaxınlaşdı. Söhbətdən halı olar-olmaz kişinin dərdi açıldı. Üzünü Molla əmiyə tutub:

-Ay qardaş, 60 yaşım var, məktəbdə uzun illərdir ki, işləyirəm. Məni hər il aparıb dərs dediyim uşaqlarla birlikdə imtahana salırlar, sertifikasiya imtahanıdır, deyirlər. O günü imtahanda gənc müəllimlərdən biri mənə nə desə yaxşıdır? Ay Hüseyn müəllim, nə qədər imtahan olar? Bunlar bizdən nə istəyirlər?

Ta heç nə demədim. Yadıma gölə su içməyə gələn maralla qurbağanın söhbəti düşdü. Qurbağa marala deyir ki, bu ovçu sən maraldan, mən maraldan nə istəyir? Maral da deyir ki, qurbağa, ovçunun oxu məni öldürməzdi, sənin bu sözün məni məhv etdi.

Bu söhbətdən necə əsəbiləşdimsə, dedim ki, Lenin "oxumaq, oxumaq, yenə də oxumaq" deyə bilirdi, biz imtahan, imtahan, yenə də imtahan keçirə bilmirik?

**Mətanət Məmmədova**

# Kişilər bir olmur: döyüləni, söyüləni var...

***Zorakılıq barədə danışanda insanlar birmənalı olaraq qadına və uşağa qarşı olan zorakılığı nəzərdə tutur. Lakin kişilərin zorakılığa məruz qalması faktları da var və bu rəqəm günü-gündən artır. 2024-cü il ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı 594 müraciət daxil olub, zorakılığa məruz qalanların 534-ü qadın, 52-si kişi olub.***





Kişilərə qarşı zorakılıq kişilərə və ya oğlan uşaqlarına qarşı edilən zorakılıqdır. Ümumiyyətlə, kişilər tez-tez həm zorakılığın qurbanı, həm də zorakılığı tətbiq edən rolunda olurlar. Kişilərə qarşı cinsi zorakılığa əksər cəmiyyətlərdə qadınlara qarşı zorakılıqdan fərqli yanaşılır və beynəlxalq hüquq tərəfindən böyük ölçüdə tanınmır. Lakin kişilərin qadınlar tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalması qəbul edilir. Kişilərə qarşı zorakılıq həm kişilər, həm də qadınlar tərəfindən törədilsə də, ABŞ Ədliyyə Statistikası Bürosunun məlumatlarına görə, kişilərin kişiləri öldürdüyü qətllər ümumi qətllərin 65,3%-ni təşkil edir.

Ailədə zorakılıq bütün cəmiyyətlərin ortaq problemdir. Bu sahədə aparılan araşdırmalar dünyada hər dörd qadından birinin və hər altı kişidən birinin ailədə zorakılığa məruz qaldıqlarını göstərib. Zorakılıq özünü həm fiziki, həm mənəvi, həm də iqtisadi tərəfdən göstərir. Ailədaxili zorakılığa məruz qalanlar arasında son illər kişilərin sayının artması halları da var.

Ailədə zorakılıq bir çox formada təzahür edə bilər, bunları sıralasaq o zaman aşağıdakı siyahı əmələ gələcək. Yumruq atma, təpikləmə, söyüş, hər hansı soyuq alətlə vurma, odlu silahlarla qorxutma və ya yaralama, zorla evləndirilmə, cinsi əlaqəyə məcbur etmə, evdə dustaq etmə və s. Bunlardan əlavə, ailə üzvlərinə qarşı səs ucaltmaq, başqalarının yanında hörmətdən salmaq, qürurunu qırmaq da zorakılıq sayılır. İqtisadi imkanların məhdudlaşdırılması, yəni maddi sıxıntıya salmaq da ailədaxili zorakılığın bir növü hesab edilir.

Nədənsə, ailədə zorakılıqdan söz düşəndə hamının gözünün önünə əri tərəfindən döyülmüş, üz-gözü göyərmiş, paltarları cırılmış qadın surəti gəlir. Bizim cəmiyyətdə kişilərin ailədə zorakılığa məruz qalmasına inanmırlar, daha dəqiq ifadə etsək əksəriyyət bunu mümkünsüz hesab edir. Bizim ölkəmizdə də zaman-zaman mətbuata, hüquq-mühavizə orqanlarına məlum olan zorakılıq hadisələri olur, amma etiraf etmək lazımdır ki, ölkəmizdə hər 100 zorakılıq halından yalnız bir neçəsi aşkara çıxır. Nə Statistika komitəsinin, nə də AQUPDK-nin verdiyi rəqəmlər reallığı əks etdirmir.

Kişilərin zorakılıq gördüyü cəmiyyətlərdə isə çox vaxt fiziki qüsuru olan kişilər və qocalar bundan əziyyət çəkir. Bu o demək deyil ki, onlara fiziki güc tətbiq edilir, yox, sadəcə sözlə də zorakılıq olur. Həmçinin bu iş qabiliyyətini itirmiş və ya yaşlanmış kişilərin ən çox raslaşdığı durumdur. Bəzi qadınlar mübahisə zamanı kişiyə hansısa əşyanı atmaqdan belə çəkinmirlər. Hər hansı bir əşya atmaq, alçaldıcı ifadədən istifadə etmək, təhqir etmək də ailədaxili zorakılıq hesab olunur.

Kişilər ailədə zorakılıq gördüyünü etiraf etmirlər, çünki bu, ətrafın stiqmasına səbəb olur. Amma bəzən də olur ki, bəzi kişilər artıq ətrafda hər kəs bildiyi üçün həyat yoldaşı tərəfindən döyüldüyünü etiraf edir. Əksər vaxtlarda kişilər potensial zorakılıq tətbiq edən hesab edilir. Bunu biz qadınların əsasən, bioloji olaraq daha güclü olmaları ilə yozuruq. Bəzi hallarda kişilər ailədə daha çox "rəis"lik etmək və hər şeyi öz nəzarəti altına almaq istədikləri üçün zorakılıq tətbiq edirlər. Bəzi hallarda isə qazdıqları quyuya özləri düşürlər. Yəni onların hegemonluq istəyi özlərinin zorakılığa məruz qalmasına yol açır. Kişinin "rəis"liyindən, davranışlarından bezən qadın da ona eynilə davranır.

Başqa səbəblər də var, maddi vəziyyətin zəif olması, psixoloji vəziyyət, həyatından narazı olması və s. Bizim cəmiyyətdə əvvəllər kişinin zorakılığa məruz qalması nadir müşahidə edilsə də, artıq sıradan, adi bir haldır. Düzdür, onlar qadınlar kimi döyülmür, işgəncəyə məruz qalmır, daha çox mənəvi zorakılığa məruz qalırlar. Amma zorakılıq elə zorakılıqdır, fiziki, mənəvi, psixoloji, iqtisadi - hansı cür olursa olsun. Zorakılığa məruz qalan da, zorakılığı tətbiq edən də kim olursa olsun, hansı cinsdən olursa olsun, qınanılmalı, stiqmaya məruz qoyulmalıdır.



**Lalə Mehralı**

# İranşünas İrina Fyodorova: “Azərbaycan və İran arasında birgə layihələr regionun iqtisadi inkişafı üçün vacibdir”

**Rusiyalı ekspert, tanınmış iranşünas İrina Fyodorova ”Moskva-Baku” portalına müsahibəsində İran prezidentinin Azərbaycana səfərini şərh edib. Ekspert 2 ölkə arasında əməkdaşlığın genişlənməsinin bütün region üçün müsbət xarakter daşıdığını deyib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- İrina Yevgeniyevna, İran prezidentinin Azərbaycana səfərinin nəticələrini necə qiymətləndirirsiniz, bunun region üçün nə kimi əhəmiyyəti var?***

- İran indi bütün qonşuları ilə, o cümlədən Tehranın mühüm iqtisadi əməkdaşlıq etdiyi Azərbaycanla münasibətləri yaxşılaşdırmağa çalışır. Bakıda Azərbaycan və İran liderləri ”qardaş dövlətlər” arasında bütün çətinlikləri aradan qaldırmağın zəru-



riliyi ilə bağlı bəyanatlar səsləndiriblər. Xüsusən də, İslam Respublikası Prezidentinin indiyədək bu mövzuda müsbət mesajları daha çox qeydə alınıb.

Bakı və Tehran arasında münasibətlərdə son zamanlar təkrarlanan böhranlar fonunda ruhlandırıcı görünən dövlətlərarası münasibətlərin yenilənməsi üçün də vektor götürülüb. Tərəflər qarşılıqlı fəaliyyətin əsas istiqamətləri üzrə əməkdaşlığın intensivləşdirilməsi tendensiyasını qeyd ediblər - bunlar əsasən nəqliyyat dəhlizləridir, onların ən əsası ”Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizidir. Bu Rusiya üçün də çox mühüm layihədir və o, artıq Azərbaycan Prezidentinin Azərbaycan-İran biznes forumunda dediyi kimi, Araz dəhlizinin nisbətən yeni, fundamental layihəsi adını alıb. Bu, nəinki İran ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvan hissəsi ilə birləşdirəcək dəhlizdir, bu, həm də Azərbaycan-Ermənistan nəqliyyat dəhlizi layihəsinə Ermənistan ərazisindən Azərbaycanın Naxçıvan hissəsinə gedən dəhlizə alternativdir.

Bu, Azərbaycan və onun ticarət-iqtisadi inkişafı üçün prinsipial əhəmiyyət kəsb edən ələqədir. Və Azərbaycan Prezidenti iranlı həmkarı ilə biznes forumda bəyan etdi ki, Araz dəhlizi Asiya ilə Avropanı, Aralıq dənizi və Fars körfəzini birləşdirən dünya üçün mühüm layihəyə çevrilə bilər. Sözsüz ki, belə bir layihə regionun əhəmiyyətinin artmasına, Şərqlə Qərb arasında qovşaq kimi Azərbaycan və İranın əhəmiyyətinin artmasına töhfə verəcək. Təbii ki, Azərbaycan və İran qonşu olduqları üçün onların öz aralarında qarşılıqlı anlaşma tapması vacibdir; həm bu, ölkələrin özləri üçün son dərəcə vacibdir - onların inkişafı və təhlükəsizliyi baxımından- həm də region üçün vacibdir.

Və təbii ki, İranın indi düşdüyü, kifayət qədər çətin şərtlərə malik olduğu şəraitdə həm iqtisadi, həm də siyasi fayda əldə etmək üçün Tehranın regionun bütün ölkələri ilə əlaqələr qurması çox vacibdir. İsrailin İranla bağlı siyasəti nəzərə alınmalıdır. Bu vəziyyətdə İsrailin İrana qarşı hərbi əməliyyat keçirməsi təhlükəsi var. Və bu vəziyyətdə Tehran qonşuları ilə münasibətləri yaxşılaşdırmaq istəyir. Azərbaycanın regionda da mövqeyi yaxşılaşır və Tehran bunu görür.

Hazırda ABŞ və İran arasında dialoq gedir, lakin dialoq çox çətin və ləng gedir. Nə İran, nə də ABŞ açıq hərbi münaqişədə maraqlı deyil.

***-Pezeşkian etnik azərbaycanlı olduğu və qonşusuna daha sadiq olduğu üçün Azərbaycanla İran arasında münasibətlərin yaxşılaşmasında onun şəxsiyyətinin rolu varmı?***

-Təbii ki, İranın siyasətini Ali Rəhbər müəyyən edir. Amma müəyyən dərəcədə ölkədə hakimiyyətə gəlməmişdən əvvəl seçki kampaniyası zamanı İranın bütün qonşuları ilə münasibətlərini yaxşılaşdırmasının zəruriliyindən danışan Pezeşkiyanın fikirləri əhəmiyyətlidir. Eyni zamanda, Pezeşkian bu barədə dəfələrlə danışıb, o, ali dini liderin mövqeyini qəbul edir.

***-Sizcə, son onilliklər ərzində çətin olan İran üçün vəziyyət niyə indi daha da mürəkkəbləşir?***

-Həqiqətən də bu situasiya yenidən mürəkkəbləşir və İranın iqtisadi vəziyyəti daha da çətinləşir.Rusiya ilk növbədə bu regionda vəziyyətin stabil inkişafında, bütün mübahisəli məsələlərin sülh yolu ilə, diplomatik yolla həllində maraqlıdır. Ona görə də bütün ölkələrin liderləri arasında təmaslar, bütün sahələrdə gərginliyin azaldılması çox vacibdir. Rusiya region ölkələri arasında istənilən dialoqu alqışlayır.

***Tərcümə - Elçin Bayramlı***

---

*KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*

# “Dünyaya sülh və dostluq mesajı verildi”

”İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiyanın ölkəmizə rəsmi səfəri Azərbaycan-İran münasibətlərində yeni mərhələnin başlanğıcıdır”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri xüsusilə qeyd edib ki, prezidentlərin məhdud, eləcədə geniş tərkibdə görüşlərdə, mətbuata verdikləri bəyanatlarda səsləndirilən fikirlər, imzalanmış mühüm sənədlər hər iki dövlətin xoş məramlı əməkdaşlığa, münasi-



bətlərin daha da yaxşılaşdırılmasına önəm verdiyini göstərir.

”Prezident cənab İlham Əliyev bildirmişdir ki, İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Əlbəttə, iki qonşu dövlətin əlaqələrinin sağlam və möhkəm olması nəinki ölkələrin, eləcədə Cənubi Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Çünki dövlətlərimizi tarixi köklər, oxşar milli-mənəvi dəyərlər, adət-ənənələr birləşdirir və cənub qonşularımızla, qardaşlarımızla olan əlaqələrimiz sarsılmazdır.

İranın bəzi şovinist dairələrinin Azərbaycan-İran münasibətlərinə xələl gətirmək cəhdi uzun müddət davam etməsinə baxmayaraq, bu ölkədə yaşayan milyonlarla soydaşlarımızın taleyi daim bizi düşündürmüş və iranlı azərbaycanlılar da daim bizimlə bir olduqlarını nümayiş etdirmişlər. Belə olan halda İranla münasibətlərin normallaşmasına, yaxşılaşdırılmasına Azərbaycan daim diqqətlə yanaşmışdır. Bu yanaşma sözsüz ki, hər iki dövlətin və xalqların milli maraqlarına uyğundur və insanların ürəyindəndir.

İran Prezidenti mətbuata bəyanatında bunu aydın ifadə edərək bildirmişdir ki, ”Beləliklə, bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrini düzəldək, ”Şimal - Cənub”, ”Şərq - Qərb” dəhlizlərini yaradaq”.

Prezidentlərin bəyanatlarında irəli sürülən fikirlər, qaldırılan məsələlər xoşməramlıdır, dövlətlərin inkişafına, xalqların xoşbəxtliyinə, sülhə, əmin-amanlığa hesablanmışdır. Bu, Cənubi Qafqazda, regionda təhlükəsizliyə zəmanət olmaqla, münasibətləri yenidən qurmaq, haqqı-ədaləti bərpa etmək üçün dünyaya bir mesajdır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# İslam həmrəyliyinə töhfə: Bakı regional ofisi







Dünya təşkilatları ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO ilə də münasibətləri də möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESCO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir. Azərbaycan İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Bu gün Azərbaycan islam həmrəyliyi ideyalarına və mədəniyyətlərarası dialoq ənənələrinə sadiqdir. Azərbaycan öz əqidəsinə, milli dəyərlərinə sadiq bir dövlətdir. Azərbaycan islami dəyərlərə, islam dininə bağlı dövlətdir.

Bunun nəticəsidir ki, müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir.

Bakıda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində ICESCO-nun Azərbaycanda yeni istifadəyə verilmiş regional ofisinin açılışı münasibətlərin möhkəm təməl üzərində qurulduğunu göstərir. Əsrlər boyu sivilizasiyaların qovuşduğu məkan olan Bakıda regional ofisin açılışı Mərkəzi Asiyanın ICESCO-nun üzvü olan dövlətlərinə xidmət göstərəcək. Regionun digər ölkələrinə də öz töhfəsini verməklə yanaşı, əməkdaşlıq və mükəmməllik ruhunu təşviq edəcəkdir. Açılış mərasimində çıxış edən ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki bildirib ki, bu nailiyyət heç də təsadüfən əldə edilməyib: "Bu, həqiqi liderliyin, aydın baxışın və daha yaxşı gələcəyə olan davamlı sadiqliyin bəhrəsidir. Parlaq müdrikliyi və biliyin qüdrətinə olan dərin inamı hamımız üçün bir işıq kimi saçan lider, Zati-aliləri Prezident İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk. Onun davamlı dəstəyi bu baxışı reallaşdırıb. Həmçinin Zati-aliləri, ICESCO-nun xoşməramlı səfiri, təhsilə, mədəniyyətə və insanlığa olan sevgisi ilə bu layihənin reallaşmasına təkan verən Birinci vitse-prezident Mehriban Əliyevaya da minnətdarlığımızı bildiririk".

## ÖLKƏLƏR VƏ NƏSİLLƏR ARASINDA ƏLAQƏLƏRİ MÖHKƏMLƏNDİRƏN BAĞLAR

Bu ofisin xüsusi bir ofis olacağını vurğulayan Salim bin Məhəmməd əl-Maliki onu da qeyd edib ki, bu ofis fərqli şəkildə fəaliyyət göstərəcək: "Fərqli ideyalara sahib olacaq. O, məqsədlərinə fərqli şəkildə çatacaq. O, üzv dövlətlərimizlə möhkəm əməkdaşlıq ruhu ilə döyünən, təhsil, mədəniyyət, elm, kommunikasiya sahələrində yeni tərəfdaşlığın ritmlərini əks etdirən canlı bir ürək olacaq. ICESCO-nun strateji məqsəd və vəzifələrini inkişaf etdirməklə yanaşı, Bakı ofisi ətraf mühitimizi müdrikliklə və təcili olaraq qorumaq, bəşəriyyətə xidmət etmək üçün süni intellekti daha da inkişaf etdirmək, diqqəti sabahın memarları olan gənclərimizə yönəltmək və dəyərli irsimizin, kimliyimizin ruhunun qorunub saxlanılması kimi məqsədlərə xidmət edəcək. Bu ofisdə ilhamverici layihələr və yeni ideyalar yaradılacaq. Burada ölkələr və nəsillər arasında əlaqələri möhkəmləndirən bağlar yaranacaq. Biz ICESCO olaraq bu mərkəzi xəyallarla, müdrikliklə və bilikla qurmağı seçirik. Bu yeni regional ofis xəyalpərəstləri, o cümlədən bunun reallaşmasını mümkün edən liderləri ləyaqətə, biliyə, mədəniyyətə, sülhə və xüsusilə də gələcəyin formalaşmasında birgə işləməyə çağıran, onlara bələdçilik edən, yollarını işıqlandıran bir mayak olacaq."

## İSLAM ÖLKƏLƏRİNİN BİRLİYİNƏ VERİLƏN ƏN BÖYÜK TÖHFƏ

Ölkəmizin müsəlman dünyası ilə əlaqələrinin genişlənməsi prosesi son dövrlər daha intensiv xarakter almışdır. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESCO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. ICESCO rəhbərliyinin təşkilatçılığı ilə görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Müasir ərəb ədəbiyyatının korifeyləri" əsəri və "Ərəb hərfləri ilə Azərbaycan yazısı" kitabı ərəb dilində çap edilmişdir. ICESCO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılması, 2008-ci ildə Mərakeşdə Azərbaycan mədəniyyət günlərinin keçirilməsində ICESCO rəhbərliyinin göstərdiyi hərtərəfli dəstək davamlı əlaqələrin mövcudluğundan xəbər verir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir.

Bu sırada Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, Heydər Əliyev Fondunun təşəbbüsü, İSESKO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum, "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" mədəniyyət ilinin açılış mərasimi, İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı, Dünya Dini Liderlərinin Bakı Sammiti və Ümumdünya Mədəniyyətlərarası Dialoq və digər tədbirlərin adlarını qeyd etmək yerinə düşər. ICESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sivilizasiyalararası dialoqun təşviqi, təhsil və digər sahələrdə çoxşaxəli fəaliyyətində sözügedən təşkilatla əlaqələri diqqətdə saxlayır.

2-3 dekabr 2019-cu il tarixlərində ICESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan mədəni irs nümunələri -Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ICESCO-nun üzvlüyünə iddia edə bilməz. Bu baxımdan müstəqil Azərbaycan "İslam dünyasının BMT-si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatının da fəal üzvüdür.

## HAQQI DƏSTƏKLƏYƏN BƏYANATLAR

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində böyük səylər göstərir. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılıb və təhqir olunubdur.

30 ilə yaxın erməni işğalına məruz qalmış Azərbaycanın 20 faizə yaxın torpağı işğal altında idi. BMT-nin Qarabağın Azərbaycana məxsus olduğunu rəsmi sənədlərlə təsdiqləməsinə baxmayaraq, qurum ötən 30 ildə münaqişənin həlli üçün heç bir müsbət addım atmadı. Özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışdı. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edərək sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladı. Bu gün Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycan sülh prosesinə sadiqdir. Azərbaycan Ermənistanla münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün ciddi addımlar atır.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın 28 ildən artıq müddətdə Ermənistanın işğalı və hərbi təcavüzü ilə üzləşməsinə baxmayaraq, məhz ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün sülh müqaviləsi təşəbbüsü ilə çıxış edib. Vətən müharibəsi zamanı ICESCO-nun ölkəmizin haqq işini dəstəkləyən bəyanatlar verməsi və müharibədən sonra bölgəyə texniki heyət göndərən ilk beynəlxalq təşkilat olması Azərbaycanda yüksək qiymətləndirilir.

## İSLAM DÜNYASININ HƏMRƏYLİYİNİN RƏMZİ

Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi şəhərin İslam sivilizasiyasının mərkəzlərindən biri kimi əhəmiyyətinin nümayişi üçün yaxşı fürsət olmuş oldu. Bildiyimiz kimi, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsi idi və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində müstəsna rol oynadı.

Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

*Zümrüd BAYRAMOVA*

# Axı biz uzunömürlü idik...

***Azərbaycan tarixin yer kürəsinə bəxş etdiyi zəngin sərvətli, gözəl və bənzərsiz təbiətli, bir ölkədir. Və bütün bunlar da insan sağlamlığı üçün əsas amillər olduğu üçün deməli, azərbaycanlılar uzunömürlü ola bilərlər. Zamanın ayrı-ayrı dövrlərində onların uzunömürlü olması rəsmi şəkildə təsdiqlənib. Azərbaycan uzunömürlü diyar kimi tanınıb. Lakin son zamanların araşdırması göstərdi ki, azərbaycanlılar Avropa, xüsusilə Qərbi Avropa ölkələrinin xalqlarına nisbətən az yaşayır.***

Nə üçün Azərbaycanda ömür qısalır? Bir vaxtlar insanlar uzunömürlü olduğu halda, indi çox yaşaya bilmir. Səbəb nədir? Bütün bunlardan danışaq, səbəbləri axtaraq, araşdıraq, bir qənaətə gələk, görək nə üçün ömrümüz qısalır?



## Nə vaxt uzunömürlü idik?..



Azərbaycan ötən əsrin əvvəlindən ortasınadək uzunömürlü insanların yaşadığı ölkə kimi tanınırdı. Xüsusilə Lerik, Yardımlı, Laçın, Quba kimi dağlıq və təmiz təbiətli rayonlarda uzunömürlü insanların sayı daha çox idi. Lerik rayonu bu baxımdan xüsusilə fərqlənirdi. Çünki orada 100 yaşını keçmiş insanlara tez-tez rast gəlinirdi və bir sıra antropoloji və gerontoloji tədqiqatlar da məhz bu bölgədə aparılmışdı. Sovet dövründə bu mövzu diqqət mərkəzində olmuş, hətta "uzunömürlülük zonası" anlayışı formalaşmışdı və Azərbaycanın adı bu sahədə Gürcüstan, Abxaziya və Ermənistanla yanaşı qeyd edilirdi.

Maraqlıdır, bəs səbəb nə idi ki, insanlar uzun ömür yaşaya bilirdi? Nəzər salaq:

-Təbii və təmiz mühit: dağlıq rayonlarda ətraf mühitin çirklənməsi az, yəni hava təmiz, su isə minerallarla zəngin olur;

-Sağlam qidalanma: kənd həyatında təbii qida istehlakı üstünlük təşkil edirdi; qidalanma əsasən təbii məhsullardan ibarət idi: süd məhsulları, təzə tərəvəzlər, meyvələr və ət.

-Fiziki aktivlik: insanlar gündəlik kənd işləri ilə məşğul olur, otlaqda, bağda, maldarlıqda aktiv həyat tərzi keçirirdilər. Oturaq həyat tərzi nadir idi.

-Az stress və güclü ailə dəyərləri: insanlar daha sadə və sosial cəhətdən bağlı həyat tərzi sürürdülər; ailə dəstəyi güclü idi, bu da psixoloji rifaha müsbət təsir göstərirdi.

-Genetik amillər: uzunömürlülüyün qismən irsi olduğu da məlumdur. Bəzi ailələrdə 90-100 yaşı keçən nəsillər ard-arda müşahidə edilirdi.

Maraqlıdır ki, hətta 1991-ci ildən Lerikdə "Uzunömürlülər Muzeyi" fəaliyyət göstərir və burada 100 yaşı keçmiş insanların həyatına dair sənədlər və fotolar toplanıb.

## Bəs nə üçün ömrümüz qısalmağa başladı?

Uzunömürlü olduğumuz həmin illərlə ömrümüzün qısaldığı illər arasında müqayisə apardıqda oxşar və oxşar olmayan səbəblər də göz önünə gəlir. Məsələn, hazırda da təbiəti gözəl dağ rayonlarımız var. Düzdür, süni qidalar dağ rayonlarına, hətta ən ucqar kəndlərə qədər gedib çıxıb, lakin həmin kəndlərdə yenə də təbii məhsullar var və insanların əksəriyyəti o qidaları istehlak edir. Ətraf mühitin çirklənməsi qlobal problem olsa da, kəndlərdə bu, bir qədər fərqlidir, çünki təmiz dağ havası, bol günəş, oksigen onu rayon mərkəzlərindən və şəhərlərdən fərqləndirir. Ailə dəyərləri isə bizim





mental dəyərlər sisteminə daxildir və xüsusilə kəndlərdə daha çox yaşadılır.

Bəs nə üçün ömür qısalır? Bax, maraqlı olan budur. Nəzər salaq.

Kəndlərdə hava təmiz, su saf, günəş bol olsa da, gəlin görək insan 30 il əvvəl ilə müqayisədə təmiz havada, günəş şüaları altında nə qədər qalır, onun fiziki aktivliyi, necə, əvvəlki illərlə müqayisədə eynidir? Əlbəttə, xeyr.

Nəzər salsaq, kəndlərimiz hər gün boşalır. Qıfıllı qapıların sayı gündən-günə artır. Təhsil alıb gələcəyini şəhərdə qurmaq istəyən və yaxud da kəndin gündəlik ağır iş rejimindən boyun qaçırıb şəhərlərdə yaşamağı seçən gənclər oranı tərk edir. Özlərinə bir iş tapandan sonra ailə qurur, övladları dünyaya gəlir. Bundan sonra ya onları uşaq bağçasına etibar edə bilmir, ya dövlət bağçasında yer ala bilmir, ya da özəl bağçalara uşağını verməyə imkanı çatmır. Bu səbəbdən də kəndlərdə yaşayan valideynləri köməyə çağırır, Onlar da övladlarının sözünü yerə sala bilmir, şəhərə köçürlər. Beləliklə də onların təmiz havası, saf suyu, bol günəşi və xüsusilə fiziki aktivliyi elə kəndlərdə qalır. Yeni həyat onlara yeni vərdişlər, həyat tərzi təqdim edir.

Kəndlərdə yaşayan insanlar isə təbii ki, əvvəlki illərdəki həyatı yaşamır. Bu gün kəndlərimizdə təndir salıb çörək bişirən qadın tapmaq məncə çıraq işığı ilə axtarmaqla da tapılan deyil. Mal-heyvan saxlayıb səhər-axşam vedrəsini götürüb onları sağmağa gedən qadınlar çox azalıb. Deməli, süd yoxdursa, təbii qidalar-pendir, şor, qatıq, yağ da yoxdur, aktiv həyat da...

Hansı kəndli ilə söhbət etsən, suvarma suyundan giley edir. Sanki bu su göyə çəkilib. Məlumdur ki, son illər iqlim dəyişməsi bütün dünyada su qıtlığı ilə müşahidə olunur. Lakin bu, o demək deyil ki, kəndlərdə su qəhətə çıxıb. Görünür, kəndlərdə bu işə nəzarət edən qurum əhali arasında su bölgüsünü normal şəkildə qura bilmir. Odur ki, kəndlilər əvvəlki illərdəki qədər əkin əkmir. Bu isə onların fiziki aktivliyini əlindən alıb.

Əsas məsələyə gəlim. Həyatımıza yeni texnologiyalar, internet daxil oldu-olmadı, öz "töhfələrini" də verməyə başladı. Bəlkə də razılaşmayan olar. Lakin gəlin, görək, paltaryuyan, qabyuyan, ətçəkən, tozsoran, ədviyyat üyüdən, qarışdıran, doğrayan, bişirən, qızardan, isidən maşınlar qadınların əlindən nələri alıb? Fiziki aktivliyi almayıbmı? Və yaxud da elektrik mişarı, otbiçən, otdoğrayan, kartofəkən, buğdabiçən maşınlar kişilərin əlindən nələri alıb, fərqinə varan varmı? Bunların hər biri ötən əsrin əvvəllərindən ortalarınadək belə deyildi axı...

Və əsas məsələyə gələk, həyatımıza daxil olan smartfon telefonlar. Bu gün kənddə, şəhərdə hər kəsin əlində telefon var. İçərisi də sosial şəbəkələrlə doludur. Bunlar o qədərdir ki, insanın bütün gününü zəbt edir. İllərdir, insanlar telefon asılılığı yaşayır. Hər gün artan sosial şəbəkələr isə insanı oturmağa, hər biri ilə bir neçə saat məşğul olmağa vadar edir.

Beləliklə, kəndli iş-gücünü ötürüb, əşi, tərəvəzdir, gedib rayon mərkəzindən alaram, çörəkdir, kənddəki çörək sexindən alaram, qatıqdır, kərədir, şordur, süddür, bazar



doludur, deyib, yavaş-yavaş mal-heyvanın ayağını həyətindən kəsir, əkin-biçin işlərini azaldır. Odur ki, bu gün belə bir deyim də formalaşıb ki...

## Kəndlər şəhərləşir...

Bəli, istənilən kəndə üz tutsaq, orada uşaqlığımızın kəndini görə bilmərik. İnsanlar evlərə yığışıb həyətdəki ağacların altı boşalıb.

*Ardı Səh. 12*

# Axı biz uzunömürlü idik...

Əvvəli Səh. 11

Çayı da odun somavarı deyil, evlərə ayaq açan elektrik somavarları qaynadır. Qonşular bir-birinin üzünü həftələrlə görmür. Televizorların səsi bayırdan kiminsə səslənməsini eşidilməz edir.

Kəndlərdən əvvəlkitək qoyun-quzu səsi də gəlmir. İnsanlar bu sahə ilə o qədər az məşğul olur ki, axşamçağı sürü ilə örüşdən kəndə qayıdan mal-qara, qoyun-quzu sürüsü indi tamamilə seyrəkləşib.

Bütün evlərə ilan kimi sarılan internet dalğaları gözəgörünməz xəstəlik kimi insanların canına daraşıb onları çarpayıda yox, elə ayaq üstündəcə məhv etməkdədir. Qoca, cavan, uşaq-hər kəsin əlində bir telefon öz guşəsinə çəkilib. Bu telefonların içindəki qənimlər isə insanları evlərə saatlarla qapadır, onları təmiz havadan, bol oksigendən, əkindən-biçindən, mal-heyvan saxlamaqdan məhrum edir, fiziki aktivliyini torpağa gömür.

Təsərrüfat işlərinə az da olsa, vaxt ayıranlar isə yuxarıda da dediyim kimi, ya su tapmır, ya bazar alverçilərinin fırıldağına tuş gəlib məhsulunu ucuz qiymətə satdığı üçün gələn il əkməməyi planlaşdırır, ya kəndin abadlaşdırılan yolları ilə mal-heyvanı örüşə aparmağa icazə olmadığı üçün alternativ yol tapa bilməyib əlacsız qalır və bu işə son qoymağa qərar verir, ya da "ta bəsdir kənd həyatı, gedim Bakıda özümə yüngül bir iş tapım, gəlim ailə-uşağımı da aparıb orada ömür sürüm",- deyir.

Bax, cavanlar, orta yaşlılar, qocalar bu səbəblərdən kəndləri tərk edir, şəhərləşən kəndlər isə boş qalır: sükuta dalıb "gözü" yolda sakinlərini gözləyir. Sakinləri isə yeni həyatda yeni həyat tərzi gözləyir. O həyat tərzi ki, hər il orta ömür uzunluğuna "töhfəsiz" ötmür. Axı bizim uzunömürlülərimiz əsasən rayonlarda yaşayan insanlardır.




| İl | Azərbaycan (Orta Ömür) | Avropa İttifaqı Ortalaması (Orta Ömür) |
|---|---|---|
| 1970 | 64.5 il | 70.3 il |
| 1980 | 66.8 il | 72.8 il |
| 1990 | 67.5 il | 74.6 il |
| 2000 | 68.2 il | 77.5 il |
| 2010 | 71.5 il | 80.3 il |
| 2020 | 72.9 il | 81.3 il |
| 2024 | 73.5 il | 81.8 il |

## 100-dən 70-ə endik

Azərbaycanla Avropa ölkələrinin ömür uzunluğu arasında fərq xeylidir. Orta ömür uzunluğu Azərbaycanda təxminən 73-74 yaş (kişi və qadınların ortalaması), Avropa ölkələrində isə təxminən 80-82 yaşdır. Bu, Azərbaycanda kişilər üçün təxminən 70, qadınlar üçün 76, Avropada isə 83-85 yaşdır.

Bəs necə oldu ki, vaxtilə 100, hətta 100-dən çox ömür sürən insanların ömür uzunluğu düz 30 il aşağı endi? Müasir dövrümüz üçün aktual olan məsələlərə diqqət edək. Azərbaycanda orta ömür uzunluğunun bəzi Avropa ölkələrinə nisbətən daha aşağı olmasının əsas səbəbləri bunlardır:

- Azərbaycanda səhiyyə sistemi son illərdə inkişaf etsə də, səhiyyə xidmətlərinin keyfiyyətini artırmaq məqsədilə çoxsaylı islahatlar həyata keçirilsə də, bəzi bölgələrdə hələ də tibbi xidmətlərə əlçatanlıq və keyfiyyət məsələləri mövcuddur, tibbi personalın sayı və resursların bölgələr arasında qeyri-bərabər paylanması hələ də problem olaraq qalır. Dövlət səhiyyə sisteminin bəzi hallarda müasir tibbi texnologiyalar və keyfiyyətli kadrlarla təminatı zəif olduğu üçün insanlar özəl klinikalara yönəlir, lakin təəssüf ki, bu da hər kəs üçün əlçatan deyil.

| Ölkə | Ümumi Orta Ömür (il) | Kişilər (il) | Qadınlar (il) |
|---|---|---|---|
| İspaniya | 84.0 | 81.0 | 86.9 |
| İtaliya | 83.8 | 81.2 | 86.3 |
| Fransa | 83.1 | 80.1 | 85.9 |
| İsveç | 83.0 | 81.0 | 85.0 |
| Almaniya | 81.2 | 78.3 | 83.0 |
| Polşa | 78.8 | 74.9 | 82.7 |
| Rumıniya | 76.6 | 72.7 | 80.5 |
| Bolqarıstan | 75.8 | 72.0 | 79.6 |
| Azərbaycan | 73.5 | 69.6 | 75.8 |

Sağlamlıq maarifçiliyinin zəif olması insanların bəzən ilkin simptomları ciddiyə almaması, müayinəyə gec getməsi və ya profilaktik tədbirlərə əməl etməməsi ilə nəticələnir. Eləcə də apteklərdə satılan dərmanların keyfiyyətinə nəzarət mexanizmi də zəif olduğundan sağalma ehtimalı da azalır.

- Qidalanma vərdişləri və həyat tərzi də ömür uzunluğuna təsir edən mühüm amillərdir. Yağlı və duzlu qidaların istehlakı, fiziki aktivliyin aşağı olması və siqaret çəkmə vərdişi kimi faktorlar sağlamlıq problemlərinə səbəb olur. Azərbaycanda kişilər arasında siqaret çəkmə nisbəti yüksəkdir.

-Ətraf mühitin çirklənməsi, xüsusilə Abşeron yarımadası və Sumqayıt kimi sənaye bölgələrində hava və su çirkliliyi yüksəkdir. Bu çirklənmə ürək-damar xəstəlikləri və digər sağlamlıq problemlərinin artmasına səbəb olur. Hipertoniya, şəkərli diabet, piylənmə də geniş yayılıb. Bu xəstəliklərin qarşısının alınması və erkən diaqnozla idarə olunması kifayət qədər deyil.

- Psixoloji gərginlik və stress də səbəblərdən biridir. Belə ki, işsizliyin çox olması müxtəlif sosial problemlərə yol açır, uzunmüddətli stressə səbəb olur. Bu da orqanizmə mənfi təsir göstərir.

-Qeyri-sabitlik uzun ömürlülük üçün problem yaradır. Düşünsək ki, Azərbaycan ötən əsrdən bəri iki dəfə müharibə yaşayıb və çoxsaylı itki verib, minlərlə soydaşımız qaçqın, köçkün həyatı yaşayıb, bütün bunlar gərginliyə və stressə yol açdığından təbii ki, ömür göstəricisinə də təsir etməmiş deyil.

-Gənc yaşda ölümlərin sayı da uzun ömür göstəricisi üçün problem yaşayır. Ötən əsrin 90-cı illərində və 2020-ci ildə Birinci və İkinci Vətən müharibəsində minlərlə gənc yaşda vətəndaşın həyatını itirməsi sonrakı illər üçün orta ömür göstəricisini aşağı salan amillərdəndir. Bu səbəblər Azərbaycanda ömür uzunluğunu azaldıb və azaltmaqdadır. Elə 100-dən 70-ə enməyimizin səbəbə də sözsüz ki, bunlardır.

## Kim 100 il yaşamasa...

Təbii ki, günah onun özündədir. Yaşam tərzi 30-40 il əvvəlkindən xeyli fərqli olsa da, yeni texnologiyalar gündəlik həyatımızı zəbt etsə də, GEMO məhsullar təbii məhsulları çıxışdırıb bazardan çıxarsa da, ətraf mühit çirklənsə də, lakin biz yaranmışların alisi olaraq bunlarla mübarizə apara bilərik. Çünki onların həyatımıza daxil olmasına elə özümüz şərait yaratmışıq. Gəlin baxaq, texnologiyaları, interneti insan yaratmayıb, kim yaradıb? GEMO məhsulları necə, insan yaratmayıb? Ətraf mühiti bəs, insan çirkləndirmir, kim edir?

İllər üzrə Ömür Uzunluğu Müqayisəsi

| İl | Azərbaycan (il) | Avropa İttifaqı Ortalaması (il) |
|---|---|---|
| 1970 | 64.5 | 70.3 |
| 1980 | 66.8 | 72.8 |
| 1990 | 67.5 | 74.6 |
| 2000 | 68.2 | 77.5 |
| 2010 | 71.5 | 80.3 |
| 2020 | 72.9 | 81.3 |
| 2024 | 73.5 | 81.8 |

Dünyada yaradılan canlıların hər biri yarandığı gündən necə yaşayıbsa, eləcə də yaşayır, təbiətə xeyrini verir. Tək insan övladı yaşayış tərzini dəyişir. Yeni axtarışlar, uğurlar, bu uğurların fonunda başgicəllənmələr, insanın insana hər mənada zülmü elə insanın özünə zərər verir. Bir də ətraf mühitə.

Beləliklə, ömrümüzü uzun etmək də, qısa etmək də yalnız bizimlə bağlıdır. Dünyanın harasında olursa-olsun, insan yaradıldığı kimi qalarsa, hansı şəraitdə sağlam, xoşbəxt, dinc yaşaması müəyyən olunubsa, o mühitdə həyata davam edərsə, sözsüz ki, ömrü də uzun olar. Odur ki, insanlığın keçmişinə qayıdaq: həyat tərzimizə, vərdişlərimizə, günlük həyatımıza, kəndimizə, bir sözlə, özümüzə qayıdaq.

Qayıtmasaq, kim 100 il yaşamasa, günah yalnız özündədir...

*Mətanət Məmmədova*

# Kim saç əkilməsi əməliyyatı etdirə bilməz?



*Saç əkimi təkcə ölkəmizdə deyil, bütün dünyada ən çox seçilən tətbiqlər arasındadır. Estetik əməliyyatlar kateqoriyasına daxil olan saç əkimi əməliyyatları hər kəsə uyğun olmaya bilər. Həm kişilər, həm də qadınlar tərəfindən edilə bilən saç əkimi əməliyyatları ümumiyyətlə saç tökülməsi problemi olan insanlar tərəfindən həyata keçirilir. Onu da deyə bilərik ki, inkişaf edən texnologiya ilə çox təbii nəticələr əldə edilir. Ancaq saç əkilməsi üçün bir çox fərqli texnika var. Hər texnika hər kəsə uyğun deyil və bəzi insanlara saç əkilməsi tövsiyə edilmir. SİA mövzu ilə bağlı araşdırma aparıb.*



## Saçsız doğulanlar

Saç əkimi baş dərisindən alınan donorlar vasitəsilə həyata keçirilir. İnsanın öz saç kökləri götürülür və digər keçəl nahiyələrə köçürülür. Ancaq saçsız doğulan insanlara bu prosedur tətbiq edilmir.

Bu səbəbdən təbii olaraq keçəl olan insanların saç əkilməsi üçün namizəd olmadığını söyləmək olar. Çünki saçsız doğulan insanlarda saç əkilməsi üçün istifadə olunacaq kök hüceyrələr yoxdur. Ancaq bu tip problemi olan fərdlərin protez saç kimi digər



üsullarla saç tökülmə problemini aradan qaldıra bildikləri də bilinir. Saçında boşluqlar olan insanlara saç əkimi edilə bilər. Bundan başqa yanıq kimi ciddi vəziyyəti olan insanların donor vəziyyətindən asılı olaraq saç əkimi əməliyyatları həyata keçirilir.

## 18 yaşdan aşağı

Hər estetik prosedurda olduğu kimi saç əkimi üçün də müəyyən yaş aralığı tövsiyə edilir. Bunun ən əhəmiyyətli səbəblərindən biri də saç tökülməsinin müəyyən yaşa qədər davam edə bilmə ehtimalıdır. Saç əkimi tətbiqləri üçün minimum yaş aralığı 24 yaş olaraq təyin edilmişdir. Bir çox həkimlər ümumiyyətlə 24 yaşından əvvəl saç əkilməsini tövsiyə etmirlər.Ancaq məlumdur ki, saç əkimi ciddi saç tökülmələri olan və 18 yaşdan yuxarı insanlar üçün də edilir.

Əgər 18 yaşdan yuxarısınızsa və saç əkilməsi üçün uyğun olub olmadığınızı düşünürsünüzsə, mütləq saç əkimi mərkəziniz və həkiminizlə məsləhətləşməlisiniz. Gənc fərdlərin saç kökləri və saç dərisi araşdırılaraq qiymətləndirilərsə, saç əkilməsi üçün uyğun olub olmadığına qərar verilir. 18 yaşdan yuxarı insanların ümumi sağlamlıq vəziyyəti və donor bölgədə kifayət qədər tük varlığı yoxlanılmalıdır.

## Ciddi sağlamlıq problemləri olan insanlar

Müəyyən sağlamlıq problemləri olan insanlara saç əkimi aparılmır. Xüsusən də həmin şəxsin qaraciyər çatışmazlığı, böyrək çatışmazlığı, şəkərli diabet kimi xəstəlikləri varsa, həkimlər bu xəstələrə saç əkilməsi əməliyyatı etmirlər. Bunun səbəbi isə insanın həm saç əkimi zamanı, həm də sonrasında daha ciddi sağlamlıq problemləri ilə qarşılaşa bilmə ehtimalıdır. Saç əkimi əməliyyatını həyata keçirəcək həkimlər səhhətində ciddi fəsadlar olan insanlar üçün əməliyyatdan əvvəl müxtəlif analiz və müayinələrlə prosesə nəzarət edirlər. Ürək və diabet xəstələrinə saç əkilməsi əməliyyatından əvvəl həkimlər qan analizləri ilə yanaşı müxtəlif müayinələr də həyata keçirirlər. Səhhətində ciddi problemlər olan insanlara saç əkimi qətiliklə edilmir.

## Anesteziyaya cavab verənlər

Saç əkilməsi üçün hansı texnikadan asılı olmayaraq, adətən lokal anesteziya tətbiq edilir. Bəzi xəstələr üçün həkimlər müxtəlif növ anesteziyaya da üstünlük verə bilərlər. Əgər adamda anesteziyaya reaksiya olarsa, həmin şəxs üçün saç əkimi aparılmır. Ciddi problemlər yaradacaq bu vəziyyət barədə mütləq həkiminizə məlumat verməlisiniz. Saç əkimi əməliyyatlarının heç biri yalnız anesteziyaya reaksiya verən insanlarda deyil, ümumiyyətlə narkoz almağa icazə verilməyən insanlarda da aparılmır.

## Yoluxucu qan xəstəlikləri olan insanlar

Saç əkilməsi üçün namizəd olmayanlar arasında qan yoluxucu xəstəlikləri olanlar da var. İİV və Hepatit C kimi xəstəlikləri olan insanlara saç əkimi aparılmır. Lakin məlumdur ki, Hepatit B xəstəsi olan insanlar həkim nəzarəti altında və müxtəlif analizlərlə saç əkimi əməliyyatı edə bilərlər. Bu xəstəlik qrupuna malik insanlarda aparılan saç əkimi prosedurunun steril və xüsusi təşkil olunmuş mühitdə aparılmasına xüsusi diqqət yetirilməlidir. Yuxarıda qeyd olunanlardan və qanla keçən xəstəlikləri olanlardan başqa insanlara saç əkimi aparılmır.





## Hemofiliya xəstələri

Əgər həkiminiz saç əkimi əməliyyatından əvvəl qan analizləri etdikdən sonra hemofiliya xəstəliyiniz olduğunu müəyyən edərsə, saç əkimi əməliyyatı etdirə bilməzsiniz. Xüsusilə saç əkmə texnikalarından əvvəl qan testlərinin ən əhəmiyyətli səbəblərindən biri də qanın laxtalanmasının nə qədər sürəcəyidir. Bu vəziyyət nəzarətdə saxlanılır və əməliyyat zamanı və əməliyyatdan sonra risk yarada biləcək bütün amillər nəzərə alınır. Qanın laxtalanması problemi olan insanlar üçün həkim nəzarəti altında lazım gəldikdə qan laxtalanma dərmanları da verilə bilər.

Saç əkimi əməliyyatına uyğun olub olmadığınızın müəyyən edilməsi prosesində mütləq mütəxəssis həkim tərəfindən qan laxtalanma testləri aparılmalıdır. Liken planus və buna bənzər dəri xəstəlikləri olan insanlarda da saç əkimi əməliyyatları aparılmır.

## Donor bölgəsində kifayət qədər saç yoxdur

Demək olar ki, hər saç əkilməsi əməliyyatından əvvəl həkimlər saç analizi aparırlar. Transplantasiya prosesi donor bölgə olaraq bilinən nahiyədən alınan uyğun saç kökləri ilə keçəl nahiyəyə aparılır. Bu məqsədlə donor nahiyədən ən keyfiyyətli saç kökləri alınır. Lakin donor nahiyəsində kifayət qədər saçı olmayan insanlara saç əkimi aparılmır. Həm keyfiyyətli, həm də kifayət qədər saça sahib insanlara tətbiq edilən saç əkimi texnikalarından sonra daha uğurlu və təbii nəticələr əldə edilir. Saç əkilməsi üsullarının müvəffəqiyyətli olması üçün keçəl bölgənin donor bölgə tərəfindən dəstəklənməsi lazımdır.

Keyfiyyətli saç köklərinin toplanması və lazımi müayinənin aparılması üçün həkimlərin analiz etmələri vacibdir. Donor nahiyədə saç kökləri uyğun keyfiyyətdə və ya kifayət qədər miqdarda deyilsə, bədənin digər yerlərindən tük kökləri alınaraq dəstək təmin edilə bilər.

## Keçəlliyi örtməyə çatmayan az miqdarda saçları olanlar

İncə saçlı insanlarla keçəllik problemi olanlar fərqlidir. Bundan əlavə saç əkimi hər nazik saçlı insana edilmir. İncə saçlılara və keçəlliyi örtməyə kifayət etməyən az miqdarda saçları olanlara saç əkilməsi məsləhət görülmür.

Saç tökülməsinin səbəbinin anadangəlmə keçəllik olduğu və donorların çox az olduğu hallarda saç əkimi texnikalarından istənilən nəticə alına bilməz. Ancaq bu xəstələrə saç tökülmə problemindən xilas olmaq üçün müxtəlif alternativ üsullar təklif edilə bilər. Mezoterapiya xüsusilə nazik saçlı insanlar üçün ən çox seçilən alternativ müalicə üsuludur.

***Ayşən Vəli***

# Avropada faşizm yenidən dirçəlir

## "Peqida" neofaşist gənclər təşkilatı hakimiyyətlərə nasistlərin gətirilməsi barədə vərəqələr paylayır

***Dünyanın əksər bölgələrində hökm sürən qeyri-sabit ictimai-siyasi vəziyyət iqtisadi, sosial, ticarət böhranlarının yaranmasına gətirib çıxarır. Xüsusilə də Avropada cərəyan edən iqtisadi, sosial, siyasi tənəzzül daha acınacaqlıdır. Bəzi siyasi şərhçilər Avropanı ağuşuna alan siyasi, iqtisadi böhranın ilkin mərhələ də Avropa İttifaqının dağılmasına gətirib çıxaracağını söyləyirlər. Sonrakı dövrdə isə Avropadan start götürəcək yeni müharibə ocaqlarının tədricən genişlənceyi proqnozlaşdırılır. Hazırda bəzi Avropa ölkələrində nasistlərin fəallığının artması proqnozların reallığa çevriləcəyinə əsaslar yaradır.***




Avropada elə bir arzuolunmaz durum yaranıb ki, Almaniya, Finladiya, Niderland, İtaliya kimi ölkələrdə əhali küçələrə çıxaraq açıq şəkil də nasizmi təbliğ və təqdim edirlər. Bu günlərdə Finlandiyanın Kanta-Hame əyalətində keçirilən seçkilərdə Adolf Hitler namizəd kimi irəli sürülüb. Ölkənin bəzi KİV-ləri Adolf Hiterin küçələrdə divarlara yapışdırılan şəkillərini və "Səs ver və qalib ol" çağırışlarını dərc edib, paylaşırlar. Məlumata görə, nasizmin təbliğatçısı rolunda mərkəzi ofisi Almaniyada yerləşən və bütün Avropanı əhatə edən "Peqida" neofaşist gənclər təşkilatı çıxış edir. Finladiyanın qeyr-rəsmi dövlət nəşri olan "Yle" bu barədə məqaləsində qeyd edir ki, əhali "Adolf Hitlerə səs ver" çağırışlarına müsbət yanaşırlar: "Onlar vətəndaşları nasist lideri Adolf Hitlerə səs verməyə çağırıblar. Seçim düzgün olsa, ölkəmiz güclü olar və əhalimiz daha yaxşı və firavan yaşayır qazanar. Vərəqələrdə onun nömrəsi 88-dir. Neonasist simvolizmində bu rəqəm nasistlərin "Heil Hitler" salamına istinad edir". Digər tərəfdən elə dövlətlər var ki, faşizmin yenidən dirçəldilməsi üçün maliyyə vəsaitləri xərcləyirlər. Bu sırada Almaniyanın, Niderlandın və İtaliyanın tutduğu yol daha təhlükəlidir. Çünki faşizmin yenidəbən baş qaldırması üçün sözügedən dövlətlərin fəallıq nümayiş etdirmələri növbəti facielərin baş verməsinə gətirib çıxara bilər. Nəzərə almaq lazımdır ki, İkinci dünya müharibəsi illərində Adolf Hitlerin ən yaxın müttəfiqləri Niderland, Yaponiya və İtaliya dövlətləri olmuşlar.



### Hitlerin müttəfiqləri yenidən bir arada

A.Hitler müttəfiqlərinin hərbi, siyasi, maliyyə dəstəyi ilə bəşəriyyətə bəlkə də ağrı-acısını, faciələrini min il sonra belə aradan qaldırılması mümkün olmayan dəhşətlər yaşatdı. Müasir dövrün texniki, hərbi imkanlarının ikinci dünya müharibəsi illərindəkindən 100-150 dəfə artıq olduğunu nəzərə alsaq, o zaman üçüncü dünya müharibəsinin baş verməsi ilə dünyamızın dağılacağını, insanlığın məhv olacağını söyləmək olar. Həm də unutmaq olmaz ki, bəzi ölkələr əllərində nüvə silahının olmasından istifadə edərək, bəşəriyyəti atom bombası ilə hədələyirlər. Rusiya prezidenti Vladimiz Putin dəfələrlə "Rusiyasız dünya bizim nəyimizə lazımdır", - deyə dünya liderlərinə hədə mesajı göndərib. Ona görə də, bəşəriyyət, xüsusilə də tərəqqipərvər, sülhsevər xalqlar imkan verməməlidir ki, Avropada yenidən nasizm baş qaldırsın. Qətiyyətlə A.Hitlerin müttəfiqləri olmuş Almaniyanın, Niderlandın, Yaponiyanın və İtaliyanın bir araya gəlməsinə imkan verilməsin. Biz bir millət olaraq faşizmin cücərməsinə qarşıyıq. Azərbaycan xalqı onsuz da ikinci dünya müharibəsindən sonra bir daha erməni faşizmindən əziyyət çəkib. Ermənistan eyni ilə faşistlər kimi şəhər və kəndlərimizi dağıdıb, minlərlə insanlarımızı amansızlıqla qətlə yetirib, on minlərlə insanı isə doğma yurd -yuvasından didərgin salmışdır. Yəni faşizmin necə amansız və qəddar olduğunu taleyimizdə və həyatımız a yaşamışıq. Hələ İkinci dünya müharibəsi illərində 600 mindən çox azərbaycanlı cəbhəyə yollandı, onların yarıdan çoxu həyatını itirdi, yarımçıq ömür yaşadı. İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq SSRİ rəhbəri İosif Stalinin 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən azərbaycanlılardan ibarət 77-ci dağatıcı diviziyası, 223-cü, 396-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradılaraq Zaqafqaziya hərbi dairəsində yerləşdirildi, 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və s. milli diviziyalar Simferopolun, Odessanın və digər şəhərlərin, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fəal iştirak etdi, 416-cı diviziya Qafqazdan Berlinə qədər böyük döyüş yolu keçdi, Berlinin süquta yetirilməsində xüsusi fəallıq göstərdi. Ümumilikdə müharibə dövründə 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olundu, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Stalinqradın müdafiəsində Baloğlan Abbasovun snayperlər dəstəsi və Həzi Aslanovun tank alayı xüsusi fəallıq və qəhrəmanlıq göstərərək düşmənə ağır zərbələr endirdiklərinə görə hər iki azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər.

### Tarix yazan Azərbaycanın qəhrəman oğulları

General-mayor Həzi Aslanov Brezna çayını keçərək Pleseni şəhərinin və 508 yaşayış məntəqəsinin azad edilməsində xüsusi xidmətlərinə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Azərbaycanlı əsgər və zabitlər 1942-ci ildə Şimali Qafqazın və 1943-cü ildə Ukraynanın azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak etdi, nasist ordusunun darmadağın edilməsində sovet silahlı qüvvələrinə yaxından köməklik göstərdilər. Şimali Qafqaz uğrunda döyüşdə Qafur Məmmədov və İdris Süleymanov göstərdikləri igidliyə görə Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Ukraynanın azad edilməsində böyük xidmətlərinə görə M.Məhərrəmova, M.Ələkbərova, Ə.Məmmədova və F.Səfərova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi.

Azərbaycanın oğul və qızları faşistlərin Buhenvald, Mauthauzen, Dahau, Zaksenhauzen, Ravensburyuk, Treblinka və başqaları ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər. 1942-1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər. 1943-cü ildə faşistlərin Almaniyanın Stranse




əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində xeyli azərbaycanlı var idi. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə, Mirdamət Seyidov, Cavad Həkimli və başqaları daxil olmuşdular.

Müharibədə döyüşməklə canlarını qurban verən oğullarımızla yanaşı arxa cəbhədə xalqımız cəbhəyə neft və neft məhsulları ixrac edirdi. Müharibə illərində Bakıda 130 növdə silah və döyüş sursatı istehsal edilirdi. İnsanlar şəxsi vəsaitlərindən müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 320 milyon rubl verilib. Cəbhəyə 1,6 milyondan çox zəruri mal və 125 vaqon isti geyim göndərilib. Yalnız Leninqrad üçün 1942-ci ilin yayına qədər Bakı müəssisələrindən 2 vaqon qara kürü, 40 ton meyvə qurusu, 12 vaqon tomat-püre və şirə, qara ciyər ekstraktı, hematogen, jelatin və digər qida məhsulları, habelə tibbi ləvazimatlar və sarğı vasitələri göndərilib.

O illərdə Sovet İttifaqında hasil olunan aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtgü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Faşizm üzərində qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. İkinci Dünya müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən SSRİ neft sənayesi naziri, daha sonra isə SSRİ Nazirlər Soveti Dövlət Plan Komitəsinin sədri olmuş Nikolay Baybakov demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü".

### Almaniya "Peqida" neofaşist gənclər təşkilatı 100 minlik aksiya keçirməyi planlaşdırır

Göründüyü kimi, biz bir millət olaraq istər İkinci dünya müharibəsi illərində, istərsə də birinci Qarabağ savaşı dövründə alman və erməni faşizmindən əziyyətlər çəkmişik, məşəqqətlər görmüşük. Düzdür, qəhrəman Azərbaycan xalqı alman faşizminin ləğv edilməsində SSRİ-yə hər cür yardım göstərdi və məqsədlərə nail oldu, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən Müharibəsi ilə özü təkbaşına erməni faşizmini tamamilə məhv etdi, mövcudluğuna son qoydu. Bununla belə biz bir millət olaraq dünyada sülhün və təhlükəsizliyin tərəfdarıyıq. Xalq olaraq müharibələrə, münaqişələrə qarşıyıq. Ona görə də, Avropada faşizmin baş qaldırılmasından ciddi narahatıq. Dünyanın aparıcı dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlarına, sülhsevər xalqlarına müraciət edirik ki, faşizmin beşikdəcə boğulması üçün birlik nümayş etdirilsin, sərt və qətiyyətli tədbirlər görülsün. Gecikmə yeni faciələrin yaranmasına, fəalkətlərin baş verməsinə gətirib çıxara bilər. Nəzərə alnmaldır ki, İtaliya, Yaponiya, Finlandiya, Niderland, Almaniya kimi faşizmə dəstək göstərən dövlətlər yaxın vaxtlarda ittifaq yaratmağı planlaşdırırlar. Bununla bağlı O.Şoltsu əvəz edən Almaniyanın yeni kansleri Fridirix Mertzi komandasının üzvü olan, Daxili İşlər nazirinin "Hitlersayağı qətiyyətli qərarların verilməsi və addımların atılması nəinki Almaniyanın, ümumilik də Avropanın nüfuzunun artmasına, insanların həyat şəraitinin yaşxılaşmasına imkan yaradar" deyə bildirib. Hətta Almaniyanın güc strukturları faşizmin genişlənməsində xüsusi fəallığı ilə seçilən "Peqida" neofaşist gənclər təşkilatının dağıdıcı aksiyalarına göz yumurlar. Hər il Hitlerin anadan olduğu 20 aprel də "Peqida" neofaşist gənclər təşkilatı 100 minə yaxın faşist dərnəklərinin üzvlərinin iştirakı ilə müsəlmanlara qarşı, xüsusilə türklər əleyhinə aksiyalar keçirirlər. Bu zaman türklərin mağazalarına, evlərinə basqınlar təşkil edilir, insanlara xəsarətlər yetirilir, əmlaklarına zərər veririlir. 2025-ci il aprelin 20-də ənənəsinə sadiq qalan "Peqida" neofaşist gənclər təşkilatı A.Hitlerin anadan olması münasibəti ilə Bonn, Berlin, Hamburq, Leypisit, Bavariya, Leverkurzen, Münhen və digər iri şəhərlərdə faşizmə qarşı çıxanların cəzalandırılması şüarları ilə aksiyalar keçirmişlər. Aksiyaların gedişində onlarla müsəlman, xüsusilə türklər zərər görmüşlər. Zərəçəkənlər polisə şikayətlər ünvanlasalar da şikayətləri baxılmamış saxlanılıb. Bununla Almaniya hakimiyyəti faşizmin dirçəlməsində maraqlı olduğunu və müəyyən hallarda nasist təşkilatlarına dəstək göstərməkdən çəkinmədiyini nümayiş etdirir. Bu isə zərərli və təhlükəlidir. Dünya xalqları gözlənilən təhlükənin dəhşətlərini anlamalı və qabaqlayıcı tədbirlər görməlidir. Əks halda dünyamız növbəti dəhşətli fəlakətlərlə üzləşə bilər.

**İLHAM ƏLİYEV**

# Qeysəriyyədən astmaya aparan yol

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*

***Astma, tənəffüs yollarının tıxanmasına, daralmasına və şişməsinə səbəb olan, insanın nəfəs almasını çətinləşdirən və uzun müddət davam edən ağciyər infeksiyasıdır. Astmanın ümumi simptomları arasında xırıltı, nəfəs darlığı, döş qəfəsində ağrı və sıxılma, tərləmə, yorğunluq və öskürək var. Bu simptomlar adətən tez-tez olur və təkrarlanır. Astma uşaqlarda ən çox rast gəlinən xroniki xəstəliklərdən biridir və dünyada təxminən 300 milyon astma xəstəsi olduğu məlumdur. Astmanın uşaqlarda müşahidə edilməsinin bir səbəbi də qeysəriyyə əməliyyatlarının gündən-günə çoxalmasıdır.***



ABŞ tədqiqatçıları 700-dən çox körpə üzərində apardıqları araşdırmada qeysəriyyə əməliyyatı ilə doğulan körpələrin astma və allergiya problemlərinin qeysəriyyə əməliyyatından qaynaqlanması qənaətinə gəliblər. Araşdırmaya görə, qeysəriyyə ilə doğulan körpələrin normal yolla doğulanlara nisbətən astma və allergiya riskinin iki dəfə çox olduğu açıqlanıb. Qeysəriyyə əməliyyatı zamanı ananın doğum kanalında olan faydalı mikroorqanizmlərdən faydalana bilmədiyi üçün körpələrin immun sisteminin normal doğulanlara nisbətən çox zəif olduğu sübut edilib.



Qeysəriyyə əməliyyatı ilə doğulan uşaqların normal doğulanlara nisbətən iki dəfə daha çox tənəffüs problemi olduğunu deyən Rutgers Universitetinin professoru Martin Blaser, ”Hər ana təbii yolla doğuş edəndə öz mikrobiomunu körpəsinə verir, çünki körpə doğum kanalında olarkən faydalı mikroorqanizmlərlə tanış olur, bu orqanizmlər onun immun sistemini gücləndirir, lakin qeysəriyyə ilə ilə doğulan körpələrdə bu olmur” deyib.

Təbii doğuş zamanı körpə ananın doğum kanalı ilə irəliləyir. Bu proses 1-24 saat arasında dəyişə bilir. Doğum kanalından keçərkən müxtəlif faydalı mikroorqanizmlərlə təmasda olan körpənin ağız boşluğundan immun sistemini gücləndirən və bağırsaq mikrobiotasını formalaşdıran mühüm bakteriyalar daxil olur. Bağırsaqlardakı faydalı mikroorqanizmlər immunitet sisteminin funksiyalarının inkişafı üçün çox vacibdir. Təbii doğuş zamanı udulan bakteriyalar körpənin immun sistemini balanslı şəkildə inkişaf etdirməyə kömək edir. Qeysəriyyə əməliyyatı zamanı bu proses olmadığına görə immunitet sistemi həddindən artıq həssaslaşa və allergik reaksiyalara səbəb ola bilər.



Qeysəriyyə əməliyyatı körpələrdə ekzema təhlükəsinə də səbəb ola bilir. Ananın doğuş kanalı ilə yox, birbaşa doğulduğu üçün bağırsaq mikrobiotasında balanssızlıq yaranır, bu da tənəffüs xəstəlikləri və astmanın inkişaf riskini artıra bilər. Qeysəriyyə əməliyyatı ilə doğulan körpələrdə mövsümi allergiyalar, toza və ya heyvan tüklərinə qarşı həssaslıq daha çox ola bilər. Qeysəriyyə əməliyyatı ilə doğulan körpələrdə süd, qoz, fındıq, fıstıq, yumurta kimi qidalara qarşı allergiya daha çox olur. Bunun əsas səbəbi bağırsaq mikrobiotasında və immun sisteminin həssaslığındakı fərqlərdir.



Ümumiyyətlə, uzun illərdir ki, qeysəriyyə ilə doğuşun allergik xəstəliklərlə əlaqəsini araşdıran çoxlu araşdırmalar aparılır. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, qeysəriyyə əməliyyatı ilə doğulan körpələrin bağırsaq mikrobiotasında Bacteroides və Lactobacillus kimi faydalı bakteriyalar daha az, patogen bakteriyalar isə daha çox olub. Bu balanssızlıq da immunitet sisteminin həddindən artıq reaksiyasına və allergik xəstəliklərin inkişafına səbəb olan əsas amildir. Meta-analizlər göstərir ki, qeysəriyyə ilə doğulan uşaqlarda astma riski 20%, ekzema riski isə 18% yüksəkdir.



Qeysəriyyə əməliyyatından sığorta olmaq həmişə mümkün deyil. Bu gün dünyada təxminən hər dörd hamilə qadından biri övladını qeysəriyyə əməliyyatı ilə dünyaya gətirir. Təbii doğuş körpənin immun sisteminin inkişafı üçün daha faydalı olsa da, bəzi hallarda qeysəriyyə ilə doğuş həyat qurtarır. Azərbaycan dünyada qeysəriyyə əməliyyatı ilə doğumun ən yüksək olduğu ölkələrdən biridir. Təəssüf ki, ölkəmizdə bununla bağlı ciddi xaotik və özbaşına vəziyyət var. Anaların və həkimlərin anlıq qərarı ilə keysəriyyə əməliyyatı təyin və icra edilir. Bununla belə, bəzi strategiyalarla qeysəriyyə yolu ilə doğulan körpələrdə allergik xəstəliklərin inkişaf riskini azaltmaq mümkündür.

Bu gün dünyada məcburən qeysəriyyə əməliyyatı edilən anaların körpələrini astma və digər allergik xəstəliklərdən qorumaq məqsədi ilə həkimlər fərqli bir üsul tətbiq edirlər. Aparılan tədqiqatlar göstərib ki, qeysəriyyə əməliyyatı ilə doğulan körpələr vaginal mikrobu qəbul edərlərsə, bağırsaq mikrobiotası yaxşılaşır və allergiya riski azalır. Ananın vaginasından əldə edilən maye qeysəriyyə yolu ilə doğulan körpələrə verilir, beləcə allergiyadan sığorta edilir. Bu üsul təbii doğuş zamanı alınan bəzi faydalı bakteriyaları təmin edə bilər.

Ana südünün tərkibində immunitet sistemini gücləndirən və bağırsaq mikrobiotasını dəstəkləyən prebiyotiklər və probiyotiklər var və qeysəriyyə əməliyyatı ilə doğulan körpələrdə allergiya riskini azaltmaqda ana südü mühüm rol oynayır. Qeysəriyyə yolu ilə dünyaya gələn körpənin bağırsaq mikrobiotasını dəstəkləmək üçün həkim nəzarəti altında probiotik əlavələrdən istifadə etmək olar. Probiyotiklər, xüsusilə Bifidobacterium və Lactobacillus ehtiva edənlər, immunitet sistemini gücləndirə bilər.

Qeysəriyyə ilə doğuşun allergik xəstəliklər riskini artırdığına dair elmi sübutlar olsa da, allergik xəstəliklər genetik, ətraf mühit faktorları və immunitet sistemi də daxil olmaqla bir çox faktorların birləşməsi nəticəsində yaranır, keysəriyyə əməliyyatı da allergiyanın inkişafına təkan verir.

Valideynlərin doğuş üsulu ilə bağlı qərar qəbul edərkən həm ananın, həm də körpənin ümumi sağlamlığını nəzərə almalıdırlar. İnsanlar dünyaya övlad gətirərkən mümkün qədər təbii yolla həyata keçirməlidirlər. Qeyd etmək lazımdır ki, keysəriyyə əməliyyatı zəruri hallarda həyat qurtaran bir prosedurdur, lakin bu kütləviləşməməli, istək əsasında həyata keçirilməməlidir.

**Lalə Mehralı**

SƏS
2 may
2025-ci il

# Süni intellekt və avtomatlaşdırma iş bazarına necə təsir edir?



EKSPERT AÇIQLADI

**"Avtomatlaşdırma uzun müddətdir ki, bazarda var və eyni zamanda iş bazarına da müsbət təsir göstərdi". Bu sözləri SİA-ya açıqlamasında ekspert Fərrux Rəcəbli deyib. O bildirib ki, bir çox insan əməyi tələb olunan, hətta insanların qüsursuz edə bilməyəcəyi bir çox işi avtomatlaşdırma sahəsində həyata keçirmək mümkündür: "Avtomatlaşdırma iş bazarına müsbət təsir göstərsə də, mənfi təsirləri də oldu. Çünki insan tələbatı azaldı. Avtomatlaşdırma bazara daxil olduqdan sonra bir çox sənaye müəssisəsində, istehsal və idxal müəssisələrində avtomatlaşma sistemləri quraşdırılır və bu avtomatlaşdırma sistemləri vasitəsilə demək olar ki, çox qısa müddətdə insanın gördüyündən daha artıq həcmdə işlər həyata keçirilir.**

Süni intellekt isə iş bazarına yeni girib və onun bazara girməyi insanlara bir çox üstünlüklər gətirdi. İnsanların artıq istədiyi hər şeyi həyata keçirməsində süni intellekt əvəzsiz rol oynadı. Bu gün insanlar süni intellektdən nəinki iş bazarı üçün, hətta şəxsi həyatlarında da istifadə edir. Hətta onlara danışan, dostluq edənlər də var. Ötən gün psixoloq belə bir məlumat paylaşmışdı - süni intellekt insanların həyatında o qədər böyük bir rol alıb ki, insanların dosta ehtiyacı qalmır.

İş bazarında üstünlük ondan irəli gəlir ki, insanlar bir çox şeyi həyata keçirmək üçün mütəxəssis dəstəyi alırdılar. Hər şeyi sadəcə süni intellektə sual verməklə həyata keçirirlər. Məsələn, bir dizayner düşünsək, o bir paylaşım hazırlayarkən bunu nə formada etmək istəyirsə, süni intellektə yazır və süni intellekt hazırlayır. Mənfi cəhəti isə burada insan faktorunun azalmasıdır. Bu da əlbəttə ki, işsizliyin artmasına gətirib çıxaracaq. Artıq süni intellektin bacarıqları o qədər limitsizdir ki, demək olar ki, insana ehtiyac qalmır".

*Nuray Paşşanlı*

## ELAN

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Kərimli Emil Rizvan oğluna verilmiş AR 059306 nömrəli xidməti vəsiqə və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# 17 yaşı var, "Barselona"da rekord qırır...

***Futbol üzrə İspaniya millisinin futbolçusu olan 17 yaşlı Lamin Yamal "Barselona" klubunda yeni rekorda imza atıb. Gənc vinger buna evdə İtaliyanin "İnter" komandası ilə heç-heçə etdikləri (3:3) Çempionlar Liqasının yarımfinal mərhələsinin ilk matçında meydana çıxmaqla nail olub.***



Kataloniya təmsilçisində 100-cü qarşılaşmasına çıxan 17 yaşlı oyunçu bu rəqəmə ən tez çatan futbolçudur. Əvvəlki rekord Qaviyə (19 yaş, 30 gün) məxsus olub.

# 27 mindən çox şagird imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il mayın 4-də tədrisi Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumi təhsil müəssisələrinin 9-cu və 11-ci sinif şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili) imtahanı keçiriləcək. Bu barədə SİA-ya DİM-dən məlumat verilib.***



Bildirilib ki, həmin gün ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən əvvəlki illərin məzunları üçün də Azərbaycan dili (dövlət dili) imtahanı keçiriləcək. İmtahan, ümumilikdə 21 şəhər və rayonda, 118 binada təşkil olunacaq. İmtahan bütün binalarda eyni vaxtda - saat 10:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Cari ilin 9-cu və 11-ci sinif şagirdləri buradan, əvvəlki illərin məzunları isə buradan "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000